

## BMT-dən xəbərdarlıq: Dünya ciddi ərzaq, enerji və iqtisadi böhranın astanasındadır!

12

# Dairəvi cənnət - "Çəmbərəkənd" parkı



6

Səs

№ 102 (6543) 10 iyun 2022-ci il. Qiyməti 60 qəpik

## Çörəklə sınağa çəkilmə astanasında olan ERMƏNİSTAN



5

## "Xaricdən maliyyələşən media Azərbaycanda fəaliyyət göstərə bilməz"

Çox təəssüflər olsun ki, Azərbaycanda fəaliyyət göstərən bəzi QHT-lər və media qurumları var ki, başqa agentliklərə işləyir. Onlar xarici resurslara işləməkdə maraqlıdırlar. Bəs, ümumiyyətlə media və QHT özlərini necə...




7

## Azərbaycan XİN Lavrova cavab verib



5

## Paytaxtımızda yenidən "Formula-1" həyəcanı başlayır!




4

## NBA-da ilk milyarder basketbolçu




16

## Rəsmi xronika

Prezident İlham Əliyev Saatlı rayonunun Məmmədabad-Genişkənd avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev ”Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# MƏRAKEŞ QƏZETİ:
# “Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə qədər möcüzələr edilib”

**Mərakeşin ”Asvat” qəzetinin magazineaswat.com elektron nəşrində şərqşünas Həşim Məmmədovun ”Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə qədər möcüzələr edilib” sərlövhəli məqaləsi dərc olunub.**

AZƏRTAC xəbər verir ki, məqalədə XX əsr Azərbaycan tarixinin əlamətdar bir mərhələsinin ölkəmizi, dövlətimizi və xalqımızı tarixi sınaqlardan çıxaran, inkişaf və tərəqqi yoluna yönəldən böyük şəxsiyyətin, siyasi liderin - ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğu bildirilib.

Mərakeş nəşrində qeyd olunur ki, ulu öndər Heydər Əliyev Azərbaycanın demokratik tərəqqisi üçün zəruri inkişaf strategiyasını irəli sürmüş, bu kursun alternativsizliyini real addımlar və əməli nəticələrlə sübut etməklə bərabər, banisi olduğu qüdrətli dövlətçilik irsinin əbədiyaşarlığına nail olan əlahiddə liderlərdən idi. Ümummilli lider Heydər Əliyevin şəxsiyyəti böyük bir siyasi və həyat məktəbidir. O, bütün fəaliyyəti dövründə


أذربيجان: من "حيدر عَلييف" إلى "إلهام عَلييف" تحقق المُعجزات

جريدة أصوات | 01:11 - 6 يونيو، 2022

غرّد · أعجبني ٠ · مشاركة

Partager · Partager

بقلم: الباحث والمستشرق هاشم محمدوف

**يُظهر التاريخ، أن التنمية المُستدامة والتقدم لكل دولة في المراحل المصيرية يرتبط ارتباطاً مباشراً**

praqmatik, rasional, səmimi, yaradıcı lider, fenomenal şəxsiyyət kimi mütərəqqi ideyalarını fədakarlıqla reallaşdırmağı bacardı. 1993-cü ildə ulu öndər Heydər Əliyevin ölkədə yenidən hakimiyyətə qayıtmasından sonra həyata keçirilən xarici və daxili siyasət, milli təhlükəsizlik və sosial-iqtisadi inkişaf konsepsiyasının əsas konturlarını müəyyən etmək üçün real zəmin yaratdı.

Diqqətə çatdırılır ki, bu strategiya Azərbaycanın regional siyasi və iqtisadi gücə çevrilməsini, Xəzər dənizinin enerji ehtiyatlarının dünyanın mühüm söz sahibi olan böyük dövlətləri ilə birgə işlənməsini, ölkə ərazisindən Şimal - Cənub və Şərq - Qərb nəqliyyat dəhlizinin əsas arteriyası kimi istifadə olunmasını, bütün ölkələr və beynəlxalq təşkilatlarla strateji tərəfdaşlıq münasibətlərinin saxlanılmasını nəzərdə tuturdu. Ulu Öndər qloballaşma dövründə milli suverenliyin məhdudlaşmasına imkan vermədən inteqrasiya proseslərinin əlverişli amillərindən ölkənin inkişafı, iqtisadiyyatın modernləşməsi və müasir Azərbaycan cəmiyyətinin mənəvi-əxlaqi əsaslarının daha da kamilləşməsi, möhkəmlənməsi üçün istifadə etməyi tövsiyə edirdi.

H.Məmmədov yazır: ”Tarix sübut etdi ki, dünya siyasətinə yaxından bələd olan ulu öndər Heydər Əliyev hələ münaqişənin ilk illərində ”Gələcək Novruz bayramlarımızı Qarabağda qeyd edəcəyik” dedikdə Qarabağ məsələsində yekun nəticəni uzaqgörənliklə hesablayırdı. Prezidentimiz Ali Baş Komandan İlham Əliyev azad edilmiş torpaqlarda Azərbaycanın üçrəngli qələbə bayrağını qaldırmaqla bu arzuları gerçəkləşdirdi”.

Yazıda bildirilir ki, Prezident İlham Əliyev yeni əsrin praqmatik lideri kimi ölkəyə rəhbərlik etdiyi müddətdə xalqın öz taleyini ona etibar etməkdə qətiyyən yanılmadığını sübut etdi. Tarixi paralellər aparsaq, görərik ki, Ümummilli Liderin möhkəm ideoloji əsaslara və inama söykənmiş siyasi xətti 2003-cü ildən sonra Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən yeni dövrün tələblərinə uyğun aparılır. Ulu Öndər Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi isə bu uğurun əsaslarından biridir.

# Azərbaycan Prezidentinin köməkçisi BMT Baş Assambleyasının sədri ilə görüşüb



Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici əlaqələr şöbəsinin müdiri Hikmət Hacıyev Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının sədri Abdulla Şahid ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın daim çoxtərəfli diplomatiyanı dəstəklədiyi vurğulanıb və Qoşulmama Hərəkatının sədri kimi bu istiqamətdə gördüyü işlər müzakirə edilib.

Xatırladaq ki, BMT-nin protokol qaydalarına əsasən, rəsmi görüşlərdə BMT-nin və bu təşkilatın rəhbər vəzifəli nümayəndəsinin təmsil etdiyi dövlətin bayraqları qoyulur.

## Örl Litzenberger:
# “İşğaldan azad edilmiş ərazilər minalardan tam təmizlənmədən köçkünlərin qayıdışının şahidi ola bilməyəcəyik”



**Amerika Birləşmiş Ştatları işğaldan azad olunmuş ərazilərdə Azərbaycana humanitar minatəmizləmə sahəsində dəstək göstərdiyini bəyan edib. Ümid edirəm ki, ABŞ Azərbaycana daha çox yardım edə biləcək. Çünki buna çox böyük ehtiyac var. AZƏRTAC xəbər verir ki, bu sözləri iyunun 9-da jurnalistlərlə keçirilən dəyirmi masada ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberger söyləyib.**

”Münaqişənin başa çatmasından bu günədək 200-ə yaxın azərbaycanlı minaların qurbanı olub. İşğaldan azad olunmuş ərazilər minalardan tamamilə təmizlənmədən köçkünlərin öz torpaqlarına qayıdış prosesinin şahidi ola bilməyəcəyik”, - deyə səfir bildirib.

Diplomat işğaldan azad olunmuş ərazilərdə bir neçə ABŞ şirkətinin spesifik layihələrdə iştirak etdiyini qeyd edərək deyib: ”Amerika şirkətləri xüsusilə bərpaolunan enerji sahəsində dünyanın ən yaxşı texnologiyasına sahibdir. İşğaldan azad olunmuş ərazilərdə bərpaolunan enerji ən vacib enerji mənbəyi hesab edilir. Azərbaycan Prezidenti İlham Əliyev bu ərazilərdə külək, günəş və hidroenerji üçün potensialın olduğunu qeyd edib. Bizim bu sahədə ən keyfiyyətli və ən yaxşı qiymətlərlə texnologiya təqdim edən şirkətlərimiz var”.

Rusiya və Ukrayna arasında gedən müharibənin Avropa üçün əlavə qaz resurslarının tapılmasına ehtiyac yaratdığını vurğulayan səfir diqqətə çatdırıb: ”ABŞ da daxil olmaqla müxtəlif ölkə rəsmilərinin iştirak etdiyi Bakı Enerji Forumunda biz Azərbaycan qazının Avropaya ixracının artırılması ilə bağlı müzakirələr apardıq”.

# İtalyan professor: Azərbaycan və Ermənistan rəhbərlərinin Brüssel görüşü tərəflərin sülh müqaviləsinə doğru düzgün yolda olduğunu göstərir

**Azərbaycan və Ermənistan rəhbərlərinin Brüssel görüşü tərəflərin sülh müqaviləsinə doğru düzgün yolda olduğunu göstərir. Bu sözləri AZƏRTAC-a müsahibəsində Roma Sapienza Universitetinin tədqiqatçısı, professor Daniel Pommier Vinçelli deyib.**




”Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Azərbaycan və Ermənistan rəhbərlərinin görüşünə verdiyi töhfələr tamamilə müsbətdir. Avropa İttifaqı ilk dəfədir ki, Azərbaycan və Ermənistan arasındakı böhranda fəal rol oynayır. Bu, mütləq yenilikdir. Hesab edirəm ki, bu, Ukraynadakı böhranın birbaşa nəticəsidir və yalnız bölgənin sabitliyinə xeyir verə bilər”, - deyə Daniel Pommier Vinçelli qeyd edib.

İtaliyalı professor Azərbaycan Prezidenti İlham Əliyevin Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşünün nəticələrini şərh edərkən deyib: ”Biz hələ də danışıqlar mərhələsindəyik. Lakin mən inanıram ki, tərəflər qəti sülh müqaviləsinə doğru düzgün yoldadırlar. Yalnız iyul ayına planlaşdırılan üçüncü görüşdə yekun qiymət verə biləcəyik”.

# 15 İYUN - ÖLKƏNİ XİLAS EDƏN BÖYÜK QAYIDIŞ

## Heydər Əliyevin qurucusu olduğu Azərbaycan sivilizasiyaların qovuşduğu və anlaşdığı bir məkana çevrilmişdir

Bu gün Azərbaycan xalqının müasir dövlətçiliyinin təşəkkül tapmasında dünya şöhrətli dövlət xadimi, dahi şəxsiyyət Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Ulu Öndər bugünkü müstəqil dövlətçilik sistemimizin ideoloji-siyasi dayaqlarını yaratmaqla öz adını milli tariximizdə əbədi həkk etdirmişdir. Heç də təsadüfi deyil ki, ən yeni tariximizin Heydər Əliyev dövrü dünya siyasətçiləri tərəfindən Azərbaycanın inkişafında keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı kimi dəyərləndirilir. Heydər Əliyevin müasir dövlətçilik konsepsiyası tarixi ənənələrə və bəşəri dəyərlərə əsaslanmaqla xalqımızın dövlətçilik və azərbaycançılıq şüurunu ifadə edir. Bu nadir tarixi simanın yenilməz iradəsi, uzaqgörənliyi, tükənməz enerjisi onu xalqının sevimlisi etmiş, fədakarlığı dillər əzbəri olmuşdur.

### 15 İYUN HƏR BİRİMİZ ÜÇÜN HƏM TARİXİ XİLASKARLIQ, HƏM DƏ MÖVCUD OLMA GÜNÜDÜR

Azərbaycan Respublikasının müasir müstəqillik illərində böyük qürurverici inkişafında 15 iyun tarixinin əvəzsiz yeri vardır. Bu, hər birimiz üçün həm tarixi xilaskarlıq, həm də mövcud olma günüdür. Çünki hələ ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə müstəqilliyə gedən yolun başlanğıcı çox keşməkeşli, iztirablı və olduqca çətin oldu. Bir tərəfdə iqtisadi və siyasi formasiyaların bir-birini əvəz etməsi ilə yaranan həllivacib problemlər, bir tərəfdə, tarixi düşmənlərimiz ermənilərin torpaqlarımızın işğalı ilə nəticələnən təcavüzü, digər bir tərəfdə isə bütün bunların müstəqilliyin ilk illərində güclü maneə obyektinə çevrilməsi həm də keçid dövrünü yaşayan ölkəmiz üçün əlavə təhlükə mənbəyinə çevrilmişdir. Təbii ki, belə bir şəraitdə bir an öncə mövcud ağır vəziyyətdən xilas olmaq, ümumdövlət və ümumxalq mənafeyinin üstün tutulacağı bir zəmin əsasında erməni işğalına və daxili çəkişmələrə son qoyacaq rəhbərə hava və su kimi ehtiyac var idi. Məhz 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən, Naxçıvanın, onun əhalisinin və muxtariyyət hüququnun qorunması, təhlükəsizliyi, yaşaması və mövcudluğunun təminatçısı olaraq xalqımızın böyük oğlu, dahi Heydər Əliyevi çox narahat edirdi. Təbii ki, muxtar respublikada getdikcə güclənən belə bir sağlam mühit və etibarlılıq xilaskarlıq gözləyən Azərbaycan xalqının ümid yeri və nicat yolu olaraq baxdığı, inadığı və güvəndiyi zirvə, dayaq və aydınlığa çevrilirdi. Təəssüflər olsun ki, bu dövrlərdə ermənilər Naxçıvana da aramsız hücumlar edir, onun sərhədləri boyunca ciddi təhdid yaradırdılar. Ancaq böyük rəhbərimizin muxtar respublikada əhalinin yanında olması, qışın oğlan çağında çıraq işığı ilə, yayın isti günlərində çətinliklərə birgə sinə gərərək doğma Naxçıvanımızın qorunması və müdafiə olunmasında əvəzolunmaz əhəmiyyətə malik oldu.

Artıq ölkəmizin ərazisinin 20 faizdən artığının işğal olunduğu və bunun nəticəsində də bir milyondan artıq Azərbaycan vətəndaşının öz ev-eşiklərindən didərgin düşdüyü həmin dövrlərdə xalqımızın böyük Heydər Əliyevə üz tutaraq, Ondan Bakı şəhərinə gələrək milli rəhbərliyi, xilaskarlığı və liderliyi qəbul etməyini istəyirdilər. Ağsaqqal sözünə, əsl başçıya və işıqlı gələcəyə ehtiyac hər keçən gün daha da artırdı. Buna görə də böyük Heydər Əliyev canından çox sevdiyi xalqının səsinə səs verərək, onun düşdüyü müharibə şəraitindən, ağır sosial-iqtisadi böhrandan bir an öncə çıxarılması üçün Bakı şəhərinə gəldi.

### 1993-CÜ İL 9 İYUN - BÖYÜK QAYIDIŞDAN MİLLİ QURTULUŞA

Beləliklə, 1993-cü il 9 iyun tarixində böyük QAYIDIŞ baş tutdu. Qədirbilən xalqımız elə həmin gündən öz liderinin ətrafında sıx



və ən başlıcası, bütün bunların dayaq nöqtəsi olaraq böyük Heydər Əliyevin müdrik siyasətinin parlaqlığını gördülər. Müasir müstəqilliyin cəmi üçüncü ilində - 20 sentyabr 1994-cü il tarixində Azərbaycan Respublikası tarixi "Əsrin Müqaviləsi"ni imzalamaqla ABŞ, Rusiya, Türkiyə, Yaponiya, Səudiyyə Ərəbistanı, Böyük Britaniya və Norveç kimi ölkələrlə beynəlxalq tərəfdaş oldu. Bu tarixi hadisə özünün qlobal mahiyyəti ilə haqlı olaraq tarixə Heydər Əliyevin neft strategiyası olaraq yazıldı.Bir sözlə, ümummilli liderimizin müdrik rəhbərliyi ilə 15 iyun - tarixi müstəqilliyinin əsaslarının, milli iqtisadiyyatımızın inkişaf perspektivlərinin, etibarlı rifah göstəricilərinin, müəyyən olunan uzunmüddətli prioritetlərin və dayanıqlı sosiallaşma proseslərinin, ərazi bütövlüyümüzün, həmçinin güclənən mövqeyimizin başlanğıcı, istinad nöqtəsi və hərəkətverici qüvvəsini təşkil etdi. Və bu gün 19 il prezidentlik fəaliyyəti dövründə ulu öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı Müzəffər Ali Baş Komandanımız Prezident İlham Əliyev qəhrəman Milli Ordumuzun və qədirbilən Xalqımızın sayəsində 44 günlük Vətən savaşından tarixi zəfərlə çıxdı. Artıq bu gün Milli Qurtuluş tariximizin həmişəyaşar işığı işğaldan azad olunan ərazilərimizin hər bir anına aydınlıq gətirməkdədir. Bu gün Azərbaycan xalqı Böyük Zəfərin əldə edilməsindən sonra, Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə öz tarixi günlərini yaşayır və mütəmadi olaraq işğaldan azad edilmiş əra-




birləşmək qərarını verdi və müdrik şəxsiyyət 6 gün sonra, daha doğrusu, 15 iyun tarixində Azərbaycan Respublkası Ali Sovetinin Sədri seçildi. Tarixi QAYIDIŞ artıq MİLLİ QURTULUŞLA aydın sabah və parlaq gələcək naminə daha da möhtəşəmlik qazandı. Böyük Heydər Əliyev həmin ilin 24 iyun tarixindən isə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır. Artıq bütün dünya Azərbaycan dövlətinin rəhbərliyində Heydər Əliyev işığını, idarəçiliyini və Onun xalqla birliyindən doğan gücünü görür və hesablaşmağa məcbur olurdular. Xalqımız böyük Heydər Əliyevin müstəqil və demokratik Azərbaycan dövlətinin başçısı olaraq fəaliyyətini dəstəkləyir və bir an öncə prezident seçkilərinin keçirilməsini istəyirdilər. Buna görə də 1993-cü il oktyabr ayının 3-də keçirilən seçkilərdə ulu öndərimiz xalqımız tərəfindən Azərbaycan Respublikasının prezidenti seçildi və bu gündən etibarən işıqlı günlərin, aydın sabahın və parlaq gələcəyin siyasi, hüquqi, iqtisadi və sosial əsasları qoyulmuş oldu. Böyük Heydər Əliyevin müdrik rəhbərliyi ilə prezident seçkilərindən cəmi yeddi ay sonra, yəni 1994-cü ilin 12 may tarixindən etibarən torpaqlarımızda başa alıb gedən müharibə atəşkəslə əvəz olundu. Bu isə sonrakı dövrlər üzrə etibarlı islahatların və sosial-iqtisadi inkişafın təmin olunması üçün əlverişli mühitin başlanğıcına çevrildi. Sonrakı proseslərin gedişi göstərir ki, böyük Heydər Əliyevin uzaqgörən rəhbərliyi nəticəsində milli iqtisadiyyat üzrə quruculuq prosesləri bir-biri ilə zəncirvari əlaqədə və asılılıqda olmaqla inkişaf etdi və bir-birini tamamlamaqla reallaşdı. Atəşkəsin əldə olunmasından keçən 4 ay ərzində bütün dünya ölkələri artıq Azərbaycanda sülhün, əminamanlığın və bunun əsasında da etibarlı tərəfdaşlıq mühitinin mövcudluğuna itməz və bitməz inamı zilərdən gələn quruculuq xəbərləri ölkə ictimaiyyəti tərəfindən böyük sevinclə qarşılınır. Ölkə Prezidentinin Azərbaycanın Müstəqilliyi Günü ərəfəsində Zəngilan rayonunun Ağalı kəndinə növbəti səfəri "Ağıllı kənd" layihəsinin açılışı ilə bağlı idi və bu hadisə Böyük Qayıdış prosesinin ilk addımları kimi qiymətləndirilir.

Bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək. Xalqımız əmindir ki, Qalib Liderimiz Prezident İlham Əliyevin rəhbərliyi ilə Böyük Qayıdışın reallaşdırılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilməklə, düşmənin yerlə-yeksan etdiyi Qarabağ dünyanın ən gözəl guşələrindən birinə çevriləcək.

**RƏFİQƏ KAMALQIZI**

# Paytaxtımızda yenidən "Formula-1" həyəcanı başlayır!



**Son illərdə Birinci Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, 42-ci Ümumdünya Şahmat Olimpiadasına və onlarla belə irimiqyası beynəlxalq tədbirlərə ev sahibliyi edən Azərbaycan 2016-cı ildən başlayaraq "Formula-1" yarışlarına da uğurla ev sahibliyi edir. Təbii ki, bütün bu və ya digər idman yarışlarının ölkəmizdə təşkili Azərbaycanın idman siyasətinin uğuru, beynəlxalq federasiyaların ölkəmizdə aparılan işlərə, həmçinin, idman və bədən tərbiyəsi sahəsində nailiyyətlərimizə verilən qiymətin göstəricisidir. Belə yarışların keçirilməsi, onu göstərir ki, Azərbaycan dünyanın qabaqcıl idman ölkələri sırasında öz layiqli yerini tutub.**

Paytaxt Bakıda yenidən Formula 1 Azərbaycan Qran-Prisinə start verir. İyunun 10-12-də keçiriləcək mötəbər yarış bu dəfə də öz azarkeşlərinə böyük sevinc hissini yaşadacaqdır. Hər il olduğu kimi, bu il də yarışların yüksək səviyyədə təşkili üçün lazımı işlər görülüb. Bu o deməkdir ki, Azərbaycan beynəlxalq tədbirlərin təşkilində yüksək təşkilatçılıq bacarığına malikdir. Məlumdur ki, keçən il pandemiya səbəbindən yarışlar tamaşaçılarsız keçirildi. Bu il yenidən Formula 1 Azərbaycan Qran-Prisini canlı izləmək imkanı yaranıb. Bakı şəhər halqasında tamaşaçılar üçün 9 tribuna var. Ən böyük tribuna "Abşeron" tribunasıdır ki, onun 5 min 500 tamaşaçı tutumu var. Ümumilikdə Formula 1 Azərbaycan Qran-Prisini canlı izləmək üçün tribunalarda 16 min 700 oturacaq quraşdırılıb.

## FORMULA 1 AZƏRBAYCAN QRAN-PRİSİNƏ 1500 YERLİ KÖNÜLLÜ DƏSTƏKDİR

Bildiyimiz kimi, Formula 1 yarışları yarım milyarda yaxın tamaşaçı auditoriyasına görə dünyada futboldan sonra ikinci yeri tutur. Bu sayda tamaşaçı auditoriyasına malik yarış Azərbaycanın dünyada daha da tanıdılmasında müstəsna rola malikdir. Bu il yarışa Formula 1 Azərbaycan Qran-Prisinin ayrılmaz hissəsi olan 1500 yerli könüllü cəlb olunub. Yerli könüllülərlə yanaşı, həmçinin 100-ə yaxın xarici könüllü yarışın təşkilinə öz dəstəyini göstərəcək. Belə ki, xarici könüllülər ABŞ, İrlandiya, İsveçrə, İndoneziya, Pakistan, Çin, Tanzaniya, Qana, Qazaxıstan kimi ölkələrdən yarışa qatılaraq yerli könüllülərlə birgə çalışacaqlar. Yeri gəlmişkən bildirək ki, Formula 1 Azərbaycan Qran-Prisi üçün 8 minə yaxın könüllü qeydiyyatdan keçib, onlardan 1500-ü müsahibə əsasında seçilərək yarışa cəlb olunub.

## MÜASİR İNFRASTRUKTUR VƏ TƏHLÜKƏSİZ İDMAN ÖLKƏSİ

Ölkəmizdə mötəbər idman yarışlarını keçirməsinin arxasında da, məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır. Ölkəmizdə müasir tələblərə cavab verən möhtəşəm idman qurğuları fəaliyyət göstərir. 2015-ci ildə istifadəyə verilən Bakı Olimpiya Stadionu 68 min tamaşaçı tutumuna malikdir. Bu nəhəng idman qurğusu müasir memarlıq üslubu, xüsusi gözəlliyi və funksional baxımdan, əlverişliliyi ilə seçilir. Beynəlxalq standartlara tam cavab verən stadionda müxtəlif funksiyalı tribunalar, qaçış zolağı və digər infrastruktur yaradılıb. Əsas və köməkçi stadionlardan, həmçinin, mexaniki binadan ibarət olan stadionda əlil tamaşaçılar, VVIP, VIP, CIP və media bölmələri mövcuddur. Bakı Tennis Akademiyası da Azərbaycanda bu tipdə inşa edilmiş ilk idman qurğusudur. İlin bütün fəsillərində yerli və beynəlxalq yarış və məşqlərin keçirilməsi üçün müasir tələblərə cavab verən istilik və havalandırma sistemi quraşdırılıb. Bundan başqa 3 min tamaşaçı tutan mərkəzi universal stadion inşa olunub. Stadionda tennislə yanaşı, voleybol, mini-futbol, basketbol, həndbol, çimərlik voleybolu, güləş, boks və idmanın digər növləri üzrə ən mötəbər çempionatlar və turnirlər keçirmək mümkündür. Bu və ya digər idman qurğularının paytaxtımızda mövcudluğu yarışların möhtəşəm keçirilməsinə əsas verir. İdman qurğuları ilə yanaşı, ölkəmizin idman sahəsində qazandıqları nəticələr də, çox vacib amillər sırasındadır. Sevindirici haldır ki, idmançılarımız həmişə onlara göstərilən etimadı doğruldublar. Sidney görüşü ölkəmizə 2 qızıl, 1 bürünc medal qazandırdı. Afinadan Azərbaycana 5 medalla qayıdan idmançılarımız Pekin yarışlarında 1 qızıl, 2 gümüş, 4 bürünc medalla pərəstişkarlarını sevindirdilər. Azərbaycana uğur gətirməklə, idmançılarımızın dünya birliyində tanınmasına səbəb olan London XXX Yay Olimpiadası daha uğurlu oldu. Belə ki, qaliblər üçün nəzərdə tutulan medallardan 2 qızıl, 2 gümüş, 4 bürünc qazanmaqla, ölkəmizə 10 medalla döndülər. Çində keçirilmiş yeniyetmələrin Yay Olimpiya Oyunlarında gənclərimiz əlavə aktivlər qazandılar. Bu kimi tarixi nailiyyətlər gənclərimizin idmana maraq və həvəsini daha da artırdı. Azərbaycana 56 medal qazandıran Birinci Avropa Oyunları, bir daha təsdiqlədi ki, ölkəmizdə perspektivli, güclü idmançılar nəsli yetişməkdədir. Bolqarıstanda keçirilmiş Avropa çempionatında gənc güləşçilərimizin ölkəmizi ləyaqətlə təmsil edərək böyük uğura imza atdılar. Belə ki, bu yarışda idmançılarımız 16 medal qazandı ki, onlardan 7-si qızıl medaldır. Bu da Azərbaycan güləşi tarixində rekord nəticədir.

## DÜNYANIN İDMAN NƏBZİ YENİDƏN ŞƏRQ İLƏ QƏRBİN KOLORİTİNİN CƏMLƏŞDİYİ ŞƏHƏRDƏ DÖYÜNÜR

Beynəlxalq idman yarışlarına ev sahibliyi edən Azərbaycan növbəti dəfə öz təcrübəsindən yararlanaraq, Formula 1 yarışlarını da uğurla başa vuracaq. Bakı şəhər halqasında dünyanın ən məşhur pilotları yarışacaqlar. YUNESKO-nun Ümumdünya mədəni irs siyahısına daxil edilmiş İçərişəhəri, paytaxtın müasir memarlıq abidələrini və Xəzərin sahilboyu hissəsini özündə birləşdirən ecazkar mənzərəni görmüş olacaqlar. 1950-ci ildən etibarən hər il keçirilən "Formula-1"in möhtəşəmliyi üçün paytaxtımızda istənilən şərait yaradılıb. Plotlar əfsanəvi tarixi yerləri əhatə edən və heç bir yerdə bənzəri olmayan trekdə yenidən yarışacaqlar. Məlumdur ki, dünya ölkələrində keçirilən Formula 1 yarışları çərçivəsində Bakıda keçiriləni ən yaxşı yarış hesab edilir. Bir daha dünya görəcək ki, sülh, tərəfdaşlıq və mədəni müxtəliflik məsələlərinə töhfələrini verən Azərbaycan qitə və dünya miqyaslı tədbirlərə uğurla ev sahibliyi edir. Yenidən dünyanın idman nəbzinin Bakıda - Şərq ilə Qərbin koloritinin cəmləşdiyi şəhərdə döyünür.

***Zümrüd BAYRAMOVA***



# Çörəklə sınağa çəkilmə astanasında olan Ermənistan

Təhlil

Qonşu dövlətlərlə, ələlxüsus Azərbaycan və Türkiyə ilə iqtisadi əlaqələri dərhal yoluna qoymaq indi Ermənistan üçün ən vacib məsələdir. Bunu erməni cəmiyyəti də yaxşı başa düşür. Başa düşür ki, ötən əsrin sonlarından, daha dəqiq desək, 90-cı illərdən işğalçı ölkənin öz fəaliyyətini dayandıran nəqliyyat kommunikasiyalarının açılması həmin ölkənin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasında yeganə çıxış yolu ola bilər. İndi ermənilər yaxşı bilirlər ki, kommunikasiya xətlərinin açılmaması bütövlükdə Ermənistanın çörəklə sınağa çəkilməsi deməkdir, baxmayaraq ki, bu ölkənin müxalifəti buna göz yumur və hələ də bəzi qüvvələr erməni xalqının taleyi ilə oynamağı, siyasi oyunlar qurmağı hər şeydən üstün tuturlar.



Artıq Ermənistan hakimiyyəti hansı çətin vəziyyətlə qarşılaşacağının, digər istiqamətlərlə yanaşı, iqtisadi sahədə də üzləşdikləri fəlakətin nəyə səbəb olacağının fərqindədir. Fərqindədir ki, tezliklə Ermənistan çörəklə sınağa çəkilə bilər və bu imtahan onlara çox baha başa gələr. Çünki bu ölkənin nə hansısa potensialı, nə də bu ölkə hakimiyyətinin hansısa ümid yeri yoxdur ki, imtahandan üzü ağ çıxılsın. Əbəs yerə deyil ki, Paşinyan hakimiyyəti hansı fəlakətlə üz-üzə olması fonunda boynunu büküb və çarəsizliyini də qəbul edərək tələblər qarşısında başqa çıxış yolu tapa bilmir. Ona görə ki, son dörd ildə Ermənistan üçün heç nə edə bilməyən bu ölkə hakimiyyəti üçün əməkdaşlıq təklifindən istifadə etməkdən başqa bir çarə yoxdur ki, bununla sosial-iqtisadi sıxıntılar içərisində çapalayan erməni cəmiyyətini mövcud açınacaqlı durumdan çıxara bilə.

İndi erməni cəmiyyətində müxalifətin barışmaz mövqeyini hesaba alan da yoxdur. Ermənistan hakimiyyəti üçün də, erməni xalqı üçün də radikal müxalifətin hay-küy salması maraqsız görünür. Ələlxüsus, sadə ermənilər bu hay-həşirə məhəl qoymurlar, çünki haylara indi hay-küy, hansısa uydurmalar, miflər yox, acınacaqlı sosial vəziyyətləri, bu vəziyyətdən çıxış yolu maraqlıdır. Onları küçə və meydanlara dəvət edənlərin isə mövcud sıxıntılarından çıxış üçün hansısa real təklifləri yoxdur və pafoslu çıxışlar onların çox çətin durumlarını aradan qaldıra bilməz, hansıki bu reallığı çox az erməni dərk etməyə bilər.

Sözsüz ki, 2020-ci ilin payızına qədər yalançı vətənpərvər bəyanatlara qulaq asan tapıla bilərdi, amma Ermənistanın biabırçı məğlubiyyətini, müharibəyə, döyüşə cəmi 44 gün tab gətirə bilməməsini görənlən üçün indi pafoslu çıxışlar söz yığınından başqa bir şey hesab olunmur. Əks halda, Ermənistan paytaxtında, yaxud başqa şəhərlərdə müxalifətə çoxlu sayda qoşulanları görərdik. Artıq ermənilər 30 il davam edən blokada şəraitindən çıxmaq arzusundadırlar və səbirsizliklə də bunu gözləyirlər. Ən böyük gözləntiləri isə sərhədlərin, kommunikasiyaların açılmasıdır ki, ermənilər üçün acınacaqlı vəziyyətdən çıxmaq üçün yeganə yol da əslində budur. İndi qonşu ölkələrin bayraqlarını yandırmaqla vəziyyətdən çıxmağa inananları ermənilər özləri axmaq və ağılsız hesab edirlər, hansısa vədlər verənləri isə yalançı sayırlar.

Məsələ burasındadır ki, ermənilərin böyük qardaş hesab etdikləri ruslar da, son zamanlar ayaqlarına düşdükləri avropalılar da onların xilas yolunu kommunikasiyaların açılmasında görürlər. Onlar Ermənistanın düşdüyü vəziyyəti daha yaxşı görürlər və bu işğalçı ölkədə getdikcə dərinləşən böhrandan çıxış yolunun yalnız iki qonşusu ilə iqtisadi əlaqələrin qurulmasından keçdiyini dərk edirlər deyə, bu barədə eyni fikirdədirlər. İstər Rusiyada, istərsə də Avropada, Brüsseldə keçirilən görüşlər də bunu təsdiq edir. Təsdiq edir ki, indi hər kəs Ermənistanın ağır durumunun, bu durumun daha da pisləşəcəyinin fərqindədir. Fərqindədir ki, belə getsə ermənilər qida belə əldə edə bilməyəcəklər və bu rəzil ölkə çörəklə sınağa çəkiləcək.

Artıq erməni sahibkarlar da eyni qənaətdədirlər. Onlar bilirlər ki, Ermənistan əgər Azərbaycanla, eyni zamanda Türkiyə ilə münasibətləri normallaşdırmasa bu ölkənin də, vətəndaşlarının da vəziyyəti kritik olacaq. Heç bir istehsalla məşğul olmayan, məhsul tədarük etməyən, daim kimlərinsə yardımına göz dikən bir ölkəyə yardım olunacağı da inandırıcı görünmür. Əvvəla, ermənilərin böyük qardaşlarının özlərinin yetərincə problemləri var və müharibə aparan bir ölkənin hansısa ölkəyə yardım edəcəyini düşünmək belə mümkün deyil. Digər tərəfdən də artıq rus qardaşları ermənilərin iç üzünü tam olaraq gördülər və hansısa münasibətdən söhbət belə gedə bilməz ki, bunun fonundan yardım da yada düşə. Qərbin isə yadına ümumiyyətlə Ermənistan düşmür və diqqət yalnız Rusiya ilə Ukrayna arasında gedən müharibəyə cəmlənib.

Təsəvvür edəndə ki, Ermənistanda məhsul istehsal edilmir və bu ölkə də gözünü dikdiyi yerlərdən yardım ala bilməyəcək, hansı vəziyyətin yaranacağı bəlli olur. Bir halda ki, texniki bitgilər, ələlxüsus taxıl əkib-becərən ölkələr belə həmin məhsulları idxal etməsə çörəklə bağlı müəyyən problemləri ola bilər, deməli Ermənistanı ümumiyyətlə böyük problemlər, daha dəqiq desək bəlalar gözləyir. Bu ölkənin çörəklə sınağa çəkiləcəyi barədə artıq ekspertlərin əksəriyyəti proqnoz veriblər. Onlar hesab edirlər ki, Ermənistanın taxıl tədarük etməyə nə maddi büdcəsi var, nə də yardım almaq kimi bir ümidi. Belə olan halda vəziyyətin necə olacağı bəllidir. Bəllidir ki, daxili tələbatı təmin etmək üçün hər bir ölkə taxıl tədarük etdiyi halda, Ermənistan bunu edə bilməyəcək və çörəyə olan tələbatı ödəməkdə aciz qalmış olacaq, yəni çörəklə imtahan olunacaq.

Ehtiyac meyarı hər bir ölkədə ola bilər, lakin ehtiyacların fərqli olduğu nəzərə alınmalıdır. Məsələn, hansısa bir ölkə ət və ət məhsulları, süd və süd məhsulları, meyvə və tərəvəzə görə qıtlıqla qarşılaşa bilər, amma bu fəlakət hesab olunmur. İş orasındadır ki, çörək qıtlığı heç də adi hal deyil və bu böyük fəlakət deməkdir. Bu həm də həmin ölkənin, həmin cəmiyyətin bir dəhşətli sınağı hesab olunur. Nəzərə alsaq ki, çörək nisbətən kasıb təbəqinin daha çox istifadə etdiyi məhsuldur, deməli, onsuz da rəzalət içərisində, acınacaqlı sosial durumda olan erməni cəmiyyətini dəhşətli imtahan gözləyə bilər, əgər günün reallıqları ilə barışılmasa, kommunikasiyaların açılmasına maneçilik törədilsə, bu qaçılmazdır. Bu baxımdan Ermənistan hakimiyyəti sərhədlərin delimitasiyasından, demarkasiyasından başlamış qonşularla iqtisadi-nəqliyyat əlaqələrinin qurumasına qədər hər bir məsələdə riskləri düzgün qiymətləndirməli, təhlükələri nəzərə almalıdır. Əks halda çox dəhşətli vəziyyətlə qarşılaşacaqlarını göz önünə almaq məcburiyyətindədirlər və bu zaman onların köməyinə indi pafosla danışan, vətənpərvərlikdən dəm vuran, müharibə zamanı isə qaçıb gizlənən müxalifət çatmayacaq.

Artıq Ermənistan hakimiyyəti də, bu ölkənin müxalifəti də, bəzi ara qarışdıran qüvvələr də erməni xalqını dolamaq yox, dolandırmaq haqqında düşünməlidirlər. Bu zamana qədər yalanlarla başları doldurulan ermənilərin indi qarınları boşdur və onların bəzəkli sözlərə yox, yaşamaq üçün tələbatlarının ödənilməsinə böyük ehtiyacları var və bu ölkənin vətəndaşlarının böyük əksəriyyətinin öz yaşayış yerlərini tərk edərək, başqa ölkələrə kütləvi axın etməsi də bu səbəbdəndir. Əgər "ermənilərin başbilənləri" mövcud reallıqları düzgün qiymətləndirməsələr, kommunikasiyaların açılmasına mane olmağa çalışsalar, yenə də öz pafoslu nitqləri ilə, yalanları ilə qulaqları, beyinləri doldurmağa davam etsələr dəhşətli imtahanla, çörəklə sınağa çəkilməklə qarşılaşmalı olacaqlar.

*İnam Hacıyev*



# "Qurtuluşdan Zəfərə"

Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı, Masallı rayon icra hakimiyyəti, Masallı rayon Heydər Əliyev Mərkəzi, Masallı rayon Gənclər və İdman İdarəsi və Masallı Gənclər Evi SXM-nin birgə təşkilatçılığı ilə YAP Masallı rayon təşkilatı aparatında 15 iyun "Milli Qurtuluş Günü" gününə həsr olunmuş "Qurtuluşdan Zəfərə" mövzusunda partiya veteranları və gənclər arasında debat keçirilmişdir.

Görüşdə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev, Masallı rayon icra hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Aybəniz Qafarova, Heydər Əliyev Mərkəzinin direktoru Dilbər İbayeva, Masallı rayon Gənclər və İdman İdarəsinin rəisi Sabiq Cahangirov, Masallı Gənclər Evi SXM-nin müdiri Fuad Mənsimov, YAP veteranları və fəal gənclər iştirak ediblər.Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev iştirakçıları salamlamış, Ulu öndər Heydər Əliyevin eləcədə Vətən müharibəsində Şəhid olanların əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir.

Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, türk dünyasının böyük oğlu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xilaskarlıq missiyasından, Vətəni və xalqı qarşısında misilsiz xidmətlərindən, Azərbaycana rəhbərlik etdiyi müxtəlif dövrlərdə verdiyi taleyüklü qərarlar və atdığı tarixi addımlar haqqında geniş məlumat vermişdir.

"Qurtuluşdan Zəfərə" mövzusunda keçirilən debatda (müzakirə) Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev, Rayon Ziyalılar Cəmiyyətinin sədri Qardaş Fətullayev, partiya veteranlarından Cəmaləddin Ağayev, Əfrail Fərziyev, Ehtibar Sadıqov, Rafiq Bağırov və başqaları fəal gənclər tərəfindən ünvanlanan, əsasən Yeni Azərbaycan Partiyasının yaranması, 1991-1993 illərdə ölkədə xaos, anarxiya, torpaqların itirilməsi, Ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyası haqqında sualları cavablandırıblar.

***RƏFİQƏ***

# Azərbaycan XİN Lavrova cavab verib

"Qeyd etmək istərdik ki, Azərbaycan və Ermənistan tərəfindən təsis edilmiş delimitasiya komissiyalarının fəaliyyəti əvvəlcədən nəzərdə tutulduğu kimi məhz iki ölkənin dövlət sərhədinin delimitasiyası məqsədini güdür". SİA xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Rusiya xarici işlər naziri Sergey Lavrovun Ermənistana səfəri çərçivəsində keçirilən mətbuat konfransında Xocalı rayonunun Fərrux kəndi ilə əlaqəli vəziyyətin Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası kontekstində nəzərdən keçiriləcəyinə dair fikrini şərh edərkən bildirib.



"Bu proses çərçivəsində Azərbaycan-Ermənistan dövlət sərhədindən kənar hər hansı bir məsələyə, o cümlədən Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərlə bağlı məsələyə baxılması nəzərdə tutulmur", - XİN sözçüsü vurğulayıb.



# Dairəvi cənnət - "Çəmbərəkənd" parkı

**Bakı gündən-günə gözəlliklər diyarına çevrilir. Bu, şəhərin hər tərəfində, hər addımda hiss olunur. Salınan yaşıllıq zolaqları, əyləncə, istirahət mərkəzləri, parklar, xiyabanlar insanların asudə vaxtlarını səmərəli keçirmələri ilə yanaşı, həm də şəhərimizin qonaqlarının zövqünü oxşayır. Digər tərəfdən də bu qədim şəhərə müasir kolorit qatır.**

İyunun 8-də Prezident İlham Əliyev paytaxtımızın Səbail rayonunda yeni salınmış "Çəmbərəkənd" parkında yaradılan şəraitlə tanış olarkən burada yeni bir gözəlliyin şahidi olduq. Şahidi olduq ki, ölkəmizin son 18 ildə sosial-iqtisadi inkişafı onlarla belə möhtəşəm tikililərin yaradılmasına səbəb olmuşdur. Bir-birindən gözəl binalar, komplekslər, mərkəzlər və yeni salınan parklar xüsusi zövqlə qurulur, Bakını Avropanın ən inkişaf etmiş şəhərləri ilə müqayisə dərəcəsinə çatdırır.



### Çəmbərəkənd- Bakının ən qədim yaşayış məskəni

Tarixi mənbələrdə qeyd olunur ki, Çəmbərəkənd Bakının ən qədim yaşayış məskənlərindən biridir və təxminən 1840-cı illərdə yerli yoxsullar, əsasən də dənizçilər tərəfindən salınmışdır. Qalanın cənub-qərb ətraflarından biri olan Çəmbərəkənd kəndi yüksək dağlıq ərazilərdə yerləşir və cənuba, dənizə doğru meyllidir. Bakının bu ətrafının yaranma tarixini dəqiq müəyyən etmək çətindir; onun Baylov kəndi, Təzə-Pir rayonu və sonralar yoxa çıxmış digər yaşayış məntəqələri kimi artıq XVIII əsrdə mövcud olması ehtimalı da istisna edilmir. 19-cu əsrin ikinci yarısında orada artıq 20-dən çox kəndli təsərrüfatları var idi. Bu kənd çoxsaylı mürəkkəb dar küçələri, arxa xiyabanları və çıxılmaz yolları olan aul tipli qəsəbə idi. Burada kasıblar və dənizçilər yaşayırdılar. 1871-ci ilə qədər onun ərazisi dörd dəfədən çox artmışdı.

Kənd keçmiş dövrün bütün kəndləri kimi, planauyğun olmayaraq qurulmuşdur: dar əyri küçələr, çoxlu arxa xiyabanlar, üzərində daxmalar olan kiçik formalı torpaq sahələri. Beləcə, torpaqdan gəlir əldə etməyi düşünmədən, təhlükəsizlik naminə mənzillər birbirinə mümkün qədər yaxın tikilirdi.

Sonralar Bakı tamamilə dəyişdi, böyüdü və düzgün tərtibatlı tikililəri ilə Avropa şəhərinə çevrildi, lakin Çəmbərəkənd əvvəlki görkəmini hələ də saxlamaqda idi. Bunun iki səbəbi var idi. Birincisi, Bakının neftdən gələn milyonlarına baxmayaraq Çəmbərəkənd sakinlərinin iqtisadi vəziyyəti heç dəyaxşılaşmırdı. O zaman Bakı Şəhər Dumasının əməkdaşlarından ibarət xüsusi komissiyanın bu sakinlərin əmlak vəziyyəti ilə bağlı apardığı müfəssəl araşdırmada, tamamilə yoxsulların 75%-nin ən yaxşı halda gündəlik maaşla, ən pis halda isə yalnız sədəqə ilə dolandığı bildirilirdi. İkincisi, şəhərdə aparılan torpaq siyasəti ümumilikdə yoxsulların mənafeyinə xidmət etmirdi. Bu torpaq siyasəti Çəmbərkənd sakinlərinə münasibətdə də amansız idi.

Mənbələrdə qeyd olunur ki, zaman-zaman kəndin planlaşdırılması ilə əlaqədar səhv addımlar atılmış, bəzi binalar küçələrin altında qalmış, məqsədəuyğun olmayan tərtibatlar Çəmbərəkəndin xarabalığa çevrilməsinə səbəb olmuş, torpaqdan istifadə etmək imkanını itirən sakinlər gəlir əldə etməkdən məhrum olmuşlar. Lakin buna baxmyaraq şəhər duması ciddi şəkildə onlardan torpağın icarə haqqını ödəməyi tələb edirdi. Bununla belə qənaətə gəlmək olar ki, duma sakinlərdən daxmalarının yerləşdiyi torpağa görə icarə haqqı alırmış. Əslində sakinlərin istifadə etmələri üçün torpaq sahəsi yox idi. Eyni zamanda qeyd etmək lazımdır ki, qiymətləndirmə bəzi yerlərdə çox yüksək səviyyədə aparılırdı. Sakinlərsə yoxsulluq içərisində yaşayırdılar. Belə olan halda üstəlik sakinlər məhkəməyə də verilir, lakin ödəyəcəkləri bir şey olmadığına görə heç bir nəticə olmurdu.

Beləliklə Çəmbərəkəndin torpaq məsələsi problemi bitmək bilmirdi. Sakinlər başqa yerlərə köçürülməyə vad edilirdi. Onlara yeni mülklər salmaları üçün güzəştli kreditlər də təklif olunurdu. 1900-cu ilin əvvəllərinə doğru torpaqla bağlı məsələlər yavaş-yavaş öz həllini tapmağa başlayır.





### İstifadəsiz ərazidən cənnətə...

Atalarımız "Görülən işdən gül ətri gələr",- demişlər. Hələ gül ətri ətrafı o zaman daha çox bürüyür ki, həmin güllər dünən daşlıq, bu gün abadolan ərazidə əkilir. Güllər ətrafa o zaman daha çox ətir saçır ki, gözəlliklər boş, istifadəsiz yerlərdə yaradılır. Dünən yanından ötəndə canın sıxılan, bugünsə baxanda gözoxşayan, qəlbin qürurla dolduğu ərazilərdə güllər ətir saçır. "Çəmbərəkənd " parkını da gül-çiçək ətri bürüyüb. Çünki ərazinin dünəni ilə bu günü müqayisəolmayacaq dərəcədədir.

Paytaxtın Həsən Seyidbəyli küçəsində istifadəsiz ərazidə salınmış yeni parkda yaşıllaşdırma işləri aparılıb, 1200 metr uzunluğunda piyada yolları salınıb, sakinlərin mənalı istirahəti və asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılıb. Parkda estakada üzərində piyadalar üçün 147 metr uzunluğunda körpü salınıb, şəhər mənzərəli iki terras düzəldilib, müasir standartlara cavab verən fəvvarə inşa edilib, ərazidə iaşə obyekti, sanitar qovşaq və inzibati bina tikilib. Ərazinin relyefinə uyğun olaraq sürüşmənin qarşısını almaq üçün istinad divarı çəkilib. Həmçinin ərazidə müasir idman və uşaq əyləncə qurğuları quraşdırılıb. Yaradılan şərait buraya üz tutacaq hər yaşda şəhər sakininin rahatlığını təmin etmək gücündədir.

### 4 hektara 50 mindən artıq ağac və gül kolu

Yaşıl rəng dünyanın ən gözəl rəngidir, desəm, yanılmaram. Çünki həyatımızdan onlarla rəng gəlib keçir, lakin insan övladının yaşıl rəngə olan ehtiyacı bitib-tükənmək bilmir. Ona görə ki, yaşıl rəng də insan kimi canlıdır. O, digər rənglərdən fərqli olaraq yaranır, yaşayır və məhv olur, yenidən doğulur. Yaşılrəngin bu həyati prosesini izləyən insan öz həyatını da bu axara uyğunlaşdırır. Çünki yaşıl rəngin bəxş etdiyi oksigen ona hava-su kimi lazımdır. Yaşıl rəngin yaratdığı sərinlik, rütubət insanın sağlamlığının təməlidir. Bol yaşıl rəngdən qaynaqlanan yağışlar insanın suya tələbatının ödəyicisidir. Yaşıl rəng insanın qidası, sağlamlığı, var olmasıdır. Bu səbəbdən də yaşıl rəngsiz insanı təsəvvür etmək olmaz.

İlk baxışdan cənnəti xatırladan "Çəmbərəkənd" parkında necə deyərlər, gül-gülü, bülbül-bülbülü çağırır. Çünki ərazisi 4 hektar olan parkın yaşıllıq sahəsinə qazon örtük döşənib, 50 mindən çox müxtəlif növ ağac, kol və güllər əkilib. Bu isə insanların üz tutacağı parkı cənnətə çevirib.

Yaradılan yaşıllıq zolağı insan amilinə xidmət edir. Çünki dövlətimizin siyasi xəttində insan sağlamlığının xüsusi yeri vardır.

### "Çəmbərəkənd" parkı şəhər sakinlərinə yay hədiyyəsi oldu

Ölkəmzin başçısının təşəbbüsü ilə salınan park, sözün əsl mənasında şəhər sakinlərinə yay hədiyyəsi oldu. Yaradılan onlarla park və xiyabanların davamı olan bu park qarşıdan gələn isti yay günlərində sakinlərin ən çox üz tutacaqları ünvan, asudə vaxtlarının ən mənalı yeri olacaq. Burada yaradılan bir-birindən gözəl mənzərələr, istirahət yerləri, qoyulan rahat oturacaqlar vaxtın mənalı keçməsi üçün nəzərdə tutulmuşdur. Salınan korpü, çəkilən yol isə parka dediş-gəlişin rahatlığnı təmin edir.

Park buraya gələnlərin böyük marağına da səbəb olacaqdır. Onlar burada gəzib-dolaşdıqca ərazinindünəni ilə bügününü müqayisə edəcək, xüsusi coğrafi mövqeyə malik dairəvi şəkilli yerin cənnətə çevrilməsi ilə qürur duyacaqlar. Buranın şəhərə açılan mənzərəsini terraslardan seyr etdikcə bu ünvan kimi, onlarla müasirtipli tikilinin sehrinə düşəcəklər.

Dairəvi cənnət "Çəmbərəkənd" parkı insanlara onların ən çox sevdiyi yaşıl rəngi bəxş edəcək. Park buraya üz tutan hər bir şəhər sakinində, qonaqda məmnunluq hissi yaradacaqdır. Çünki bu park yaşıl rəngli cənnəti xatırladır. Yaşıl rəng isə harada çoxdursa, insan övladı orada xoşbəxtdir, sağlamdır, məmnundur.

***Mətanət MƏMMƏDOVA***

**Çox təəssüflər olsun ki, Azərbaycanda fəaliyyət göstərən bəzi QHT-lər və media qurumları var ki, başqa agentliklərə işləyir. Onlar xarici resurslara işləməkdə maraqlıdırlar. Bəs, ümumiyyətlə media və QHT özlərini necə tənzimləməlidir? SİA mövzu ilə bağlı sorğu edərək media və QHT nümayəndələrinin fikirlərini öyrənib.**




# “Xaricdən maliyyələşən media Azərbaycanda fəaliyyət göstərə bilməz”

**”Bakı-Xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev:** ”Təxminən 10-15 il əvvəllə müqayisədə indiki dövrdə həqiqətən başqa xarici mərkəzlərlə əməkdaşlıq edən qurumların prinsipləri əsasında işləyən bəzi QHT və media orqanlarının qurumları xeyli dərəcədə məhduddur. Hətta mən deyərdim ki,



15 il əvvəllə müqayisədə belə QHT və media qurumlarının sayı minimumdan da aşağı səviyyədədir. Doğrudur, bunun kökü tamamilə kəsilməyib və az da olsa rast gəlinir. Hələ də müxtəlif Azərbaycan dövləti ilə bir çox prinsipial məsələlərdə uzlaşmayan mərkəzlərlə bağlı media orqanları və QHT-lərin fəaliyyətlərinə rast gəlmək mümkündür. Amma bu tendensiyanın getdikcə azalması bizim üçün müsbət məqamdır. Bu gün həyata keçirilən müəyyən məqsədyönlü tədbirlər nəticəsində bu çevrə olduqca daralıb. Bu yaxşı bir haldır. Onların çevrəsi genişlənərsə bu bizim üçün çox böyük təhlükə ola bilər. Ona görə də proses daim nəzarət altında saxlanılmalıdır. Hər kəs də bilməlidir ki, ölkənin milli mediası və QHT sektoru yalnız milli və dövlətçilik mənafeləri ilə bağlı olmalıdır.

Ötən illərdəki təcrübə də göstərdi ki, öz dövlətimizə, onun milli təhlükəsizlik maraqlarına, mənəvi dəyərlərinə bağlı olmayan nə QHT-lər, nə də media orqanları nəninki inkişaf edə, hətta mövcud ola bilməzlər. Hər hansı bir media orqanı və QHT-lər dövlət və milli mənafedən nə qədər uzaqlaşırsa, bir o qədər öz fəaliyyətini məhdudlaşdırmış olur.

Ötən illərin təcrübələrindən biri də bundan ibarətdir ki, media və QHT sektoru yanız dövlət və milli mənafelərə bağlı olduqda güclü olur. Əks halda, onlar güclü ola bilməzlər. Çünki xaricdəki müxtəlif mərkəzlərə bağlandılarsa, deməк ki onların müstəqilliyi itirilib, onlar fəaliyyət üçün çərçivə və prinsipləri sifariş formasında kənardan alırlar. Onlar peşəkar sturukturlara çevrilə bilməzlər”.

**”Ailə Dünyası” Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri, tanınmış QHT sədri Gülayə Səfərova:** ”Ölkəmizin aparıcı ictimai institutlarından olan QHT-lər və Kütləvi İnformasiya Vasitələri müstəqil Azərbaycanımızın və xalqımızın mənafeyini hər şeydən üstün tutaraq, dövlətimizin və cəmiyyətimizin formalaşmasında, inkişafında, ölkəmizdə mövcud olan mədəni və millimənəvi dəyərlər sisteminin qorunmasında, onun inkişaf etdirilməsi və gələcək nəsillərə çatdırılmasında böyük rolu var.



Rəhbəri olduğum ”Ailə Dünyası” Ailələrə Hüquqi Yardım İctimai Birlik də bu sahədə öz töhvəsini verməк üçün hər zaman media ilə münasibətlərini düzgün qurmaqda maraqlı olub. Çünki cəmiyyətimizi narahat edən problemlərlə bağlı həyata keçirdiyimiz layihələrin mediada işıqlandırılması cəmiyyətin daha da çox məlumatlanmasına və maariflənməsinə gətirib çıxarır. Ümumiyyətlə, dövlətimizin inkişafı naminə QHT-lərin və medianın milli maraqlarımızla bağlı olan bütün məsələlərdə vahid mövqedən çıxış etməsi çox vacib məsələdir. Amma çox təəssüf ki, bu də sıralarımızda siyasi dairələrin təsirinə düşərək, eyni zamanda ölkəmizin inkişafını gözü götürməyən beynəlxalq təşkilatlardan aldıqları qrantlar hesabına insan hüquq və azadlıq müdafiəsi pərdəsi altında ölkəmizi dünyada gözdən salmaq istəyən qüvvələrlə birgə fəaliyyət göstərən QHT-lər və media nümayəndələri var. Ona görə də bizlər də QHT və media təmsilçiləri olaraq belə məqamlarda onların yalanlarını ortaya qoymağı, hər zamankı kimi haqq səsimizi dünyaya çatdırmağı, dövlətimizin yanında olmağı, ümummilli həmrəyliyimizi qorumağa çalışmalıyıq”.

**Jurnalist Ekspert Mərkəzinin sədri**



**Ceyhun Musaoğlu:** ”Azərbaycanda fəaliyyət göstərən QHT-lərlə mətbuatın bu mövzuda fərqlilikləri var. QHT-lər layihələrini xarici donorlara təqim edə bilirlər. Bu gün Azərbaycanda demək olar ki, xarici donorlar fəaliyyət göstərmir. Çünki Ədliyyə Nazirliyində və qanunda olan bəzi dəyişikliklər xarici qrantların Azərbaycana gəlməsini bir qədər yasaqlayır. Əslində bu məqsədə uyğundur. Çünki donorun kim olduğu ciddi şəkildə yoxlanılır. Bunlar təhlükəli məsələlər olduğu üçün dövlət ciddi əhəmiyyət göstərir. Buna görə də xarici qrantların ölkəyə gəlməsində bu və ya digər şəkildə maneələr var. Bu zaman da bəzi QHT-lərin xaricdən maliyyələşməsi bir qədər arxa plan düşür.

Media haqqında yeni qanunda göstərilir ki, media kənardan maliyyələşə bilməz. Xaricdən maliyyələşən media Azərbaycanda fəaliyyət göstərə bilməz. Məsələlər ciddi şəkildə tənzimlənir və nəzarətdə saxlanılır. Amma çatışmazlıqlar və ya neqativ hallar varsa buna qarşı həm cəmiyyət, həm ictimaiyyət, həm də dövlət öz sözünü deyib və deyəcək”.

**Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Media eksperti Müşfiq Ələsgərli:** ”Azərbaycan Respublikası ərazisində QHT və KİV-lərin forma və prinsipləri qanunvericilikdə tənzimlənir. Bunlar media və QHT haqqında qanunda çox açıq bir şəkildə qeyd olunub.

Azərbaycan Respublikasında xaricdə



təsis olunan və auditoriya olaraq Azərbaycan ərazisinə yönələn KİV və eyni zamanda Azərbaycan ərazisində olub müəyyən beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək istəyən təşkilatların da formaları media haqqında qanunda çox aydın şəkildə göstərilib. Yəni, həm QHT-lərin, həm də KİV-lərin beynəlxalq əməkdaşlığı qanunlarla tənzimlənir.

Kimlər ki, öz fəaliyyətini beynəlxalq əməkdaşlıq səviyyəsində qurmaq istəyir onlar qanun səviyyəsində fəaliyyət göstərməlidirlər. Amma təəssüflər olsun ki, bəzən qanundan kənar fəaliyyətə təşəbbüs göstərənlər ortalığa çıxır. Qnunlardan kənara çıxanlar haqqında qanunla ölçü götürülür. Bu dünyanın hər yerində budur. Qanundan kənara çıxanların fərqli məqsədləri var”.

***Ayşən Vəli***

# Engin Özer: “Rusiya və Türkiyə Zəngəzur dəhlizində maraqlıdırlar”

**“Anti-Rusiya sanksiyaları fonunda Rusiya ilə Türkiyə arasındakı ticarət dövriyyəsi artacaq və biz müəyyən nəticələri görməkdəyik. Bunu anlamaq üçün iqtisadçı olmağa ehtiyac yoxdur. İndi Rusiyaya böyük reeksport məhsulları axır və onların ölçüsü nəhəngdir. Bununla yanaşı, Türkiyə Rusiydan nəhəng turist axını gözləyir”. SİA xəbər verir ki, Engin Özer mövzu ilə bağlı ”Kavbyuro”ya danışıb.**



Analitik həmçinin əlavə edib ki, Ankara və Moskva ölkə ərazisində ”MİR” kartları ilə, həmçinin ticarət dövriyyələrində milli valyutalar vasitəsi ilə ödəniş etmək üçün razılığa gəliblər. Ekspert onu da hesab edir ki, Türkiyə ilə Rusiyanın dəmir yollarını birləşdirəcək Zəngəzur dəhlizi ölkələr arasındakı ticarət dövriyyələrinin artmasına şərait yaradacaq.

”Nikol Paşinyan və onun hökuməti də regionun blokadadan çıxarılmasında və bu dəhlizin açılmasında maraqlı olmalıdırlar, belə ki, bu, Ermənistanın blokadadan çıxmasına imkan verəcək. Başqa tərəfdən, qeyd etmək lazımdır ki, mövcud layihə və bu layihəyə qoyulan siyasi ”stavka” - Rusiya, Türkiyə, Çin, hətta Avropa İttifaqı kimi nəhəng geosiyasi oyunçular üçün Ermənistanın özündən daha önəmlidir”, deyə qeyd edən Engiz Özer hesab edir ki, dəhliz işə salındıqdan və rus məhsulları Türkiyəyə, oradan isə Yaxın Şərqə çatdırıldıqdan sonra bu, məhsul çatdırılmaları yönündə formalaşdırılan oriyentasiya və yeni bazarlara çıxış üçün yeni era olacaq, hansı ki, həmin amillər daha əvvəllər logistik gecikmələr səbəbindən rentabelli hesab edilmirdi.

***Rövşən RƏSULOV***

# Rusiya və Türkiyə nə barədə razılığa gəliblər?

“Rusiya və Türkiyə Cənubi Qafqazda prosesləri necə davam etdirmək barədə razılığa gəliblər”. SİA xəbər verir ki, bunu çərşənbə günü Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Rusiyanın xarici işlər naziri Sergey Lavrovla birgə mətbuat konfransında deyib. ”Rusiya tərəfi hər iki prosesə hər cür dəstəyi verməyə davam edir, buna görə ona təşəkkür etmək istəyirəm”, - Çavuşoğlu bildirib.



Lavrov da öz növbəsində qeyd edib ki, Rusiya və Türkiyə Cənubi Qafqazda işləməyi necə davam etdirmək barədə razılığa gəliblər: ”Bilirsiniz ki, Türkiyənin təşəbbüsü ilə üç Cənubi Qafqaz ölkəsi və onlara qonşu olan Türkiyə, Rusiya və İranın iştirakı ilə 3+3 formatı yaradılıb. Biz artıq Moskvada ilk görüşü keçirmişik, gürcü həmkarlar iştirak edə bilmədilər, lakin biz onları həmişə görməyə şad olacağımızı vurğulayırıq. Növbəti görüş çox yaxın vaxtlarda hazırlanır və ümid edirəm ki, biz bunu elan edə biləcəyik”.

# "TEKNOFEST AZƏRBAYCAN" - DÜNYANI HEYRƏTLƏNDİRƏN "BİR MİLLƏT, İKİ DÖVLƏT" HƏMRƏYLİYİ!



**RƏCƏB TAYYİB ƏRDOĞAN:** "Can Azərbaycanın Prezidenti əziz dostuma təşəkkür edirəm"

**İLHAM ƏLİYEV: "Azərbaycan hökuməti və xalqı hər zaman olduğu kimi, bu gün də qardaş Türkiyə xalqı ilə həmrəydir"**

**Müqəddəs deyim var: "Haqlısansa qorxma, haqq səni qoruyacaq!". Bəli, haqlı olduğumuz üçün haqq, ədalət, ərazi bütövlüyümüz bərpa oldu. Və bu gün qədim tarixlərin sınağından çıxmış, aforizm kimi dillər əzbəri olan "Azərbaycan-Türkiyə - Bir millət, iki dövlət" həmrəyliyinin nəticəsində Qələbə Zəfrinə nail olduq.**

O da təsadüfi deyildi ki, Vətən müharibəmizin qələbə ilə başa çatmasından cəmi bir ay sonra, Azadlıq meydanında keçirilən təntənəli Zəfər paradında qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan da fəxri qonaq qismində iştirak etdi, möhtəşəm qələbə qürurumuzu bizimlə birlikdə yaşadı, sevincimizi paylaşdı. Türkiyə Prezidenti işğaldan azad olunan ərazilərimizə də səfər edərək barbar ermənilərin o torpaqlarda törətdiyi vəhşiliklərə, tarixi, mədəni, dini irsimizə qarşı nümayiş etdirdiyi vandallığa əyani şahidlik etdi.Eyni zamanda Rəcəb Tayyib Ərdoğan Füzuli Beynəlxalq Hava Limanının açılışına qatılaraq bu torpaqlarda yalnız quruculuq-bərpa işlərinin aparılacağına, bu yerlərdə yalnız sülh və əmin-amanlıq olacağına dair dosta da, düşmənə də mesaj verdi. Azərbaycanın böyük qayıdışla bağlı həyata keçirdiyi irimiqyaslı işlərə hər zaman köməklik göstərəcəklərini nümayiş etdirdi. Bu gün Qarabağda, Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işlərində Türkiyə şirkətləri fəal iştirak edirlər. Bu həmrəylik, sarılmaz qardaşlıq hələ 1918-ci il 28 may tarixində Tiflsdə elan edilmiş Azərbaycan Demokratik Respublikasının Milli məclisi açılana kimi Müvəqqəti Milli Şuraya rəhbərlik etmiş Fətəli xan Xoyski yeni müstəqil dövlətin ilk addımını 4 iyun tarixində - yəni 1 həftə sonra Türkiyə ilə əlaqələrlə atmışdır. Osmanlı imperatorluğu ilə Azərbaycan Milli Şurası arasında Batum Andlaşması rəsmi sənədinin 4-cü maddəsinə əsasən Türkiyə hərbi güc vasitəsi ilə Azərbaycanın Rusiyanın istilasından xilas olması, xalqın qorunması məqsədilə öz köməyini göstərməyə razılaşmışdı. Tarixi sənədi Türkiyə tərəfdən Ədliyyə naziri Xəlil bəy və 4.Kolordi komutanı Vehip paşa, Azərbaycan tərəfdən Məmməd Əmin Rəsulzadə və xarici işlər naziri Məmməd Həsən bəy imzalamışlar.Azərbaycanda bolşeviklərə böyük dəstək verən ermənilərin Bakıda törətdikləri soyqırımın qarşısının alınması üçün Azərbaycan Demokratik Respublikasının Rəyasət Heyətinin sədri Məmməd Əmin Rəsulzadə və Dağıstan milli rəhbəri Heydər Mammat İstambula gəlmiş, Tələt və Ənvər paşa ilə görüşmüşlər və Türkiyə dərhal öz ordusunu Azərbaycana göndərmək üçün hazırlamışdır. Bax, hələ o vaxt Türkiyə -Azərbaycan birliyi, həmrəyliyi bu gün də də davam edir. Heç də təsadüfi deyil ki, Ulu öndər Heydər Əliyev 1997-ci il 8 may tarixində Türkiyənin İş Adamları ilə Görüşdə söylədiyi nitqində Soyqırım illərində Türkiyə Respublikasının yaradıcısı Mustafa Kamal Atatürkün Azərbaycana göstərdiyi böyük diqqəti yüksək qiymətləndirərək demişdir: "... böyük Mustafa Kamal Atatürk 1918-1920-ci illərdə həmin erməni millətçilərinin, daşnakların azərbaycanlıların başına nə bəlalar gətirdiklərini yaxşı bilirdi. Azərbaycanda nə qırğınlar etmişdilər, yaxşı bilirdi. Məhz Mustafa Kamal Atatürkün və onun kimi insanların iradəsi nəticəsində 1918-ci ildə Türkiyənin Qafqaz Ordusu Azərbaycana gəldi, Naxçıvanda, Qarabağda, Gəncədə, Bakıda Azərbaycanlıları erməni qırğınından xilas etdi. Biz bunları unutmuruq" .Və bu gün də 100 illik tarixi yenilənmədə yenə "bir millət, iki dövlət"-in birlik, həmrəylik həyat fəlsəfəsinin şahidi oluruq. Bu dəfə Azərbaycanın Müstəqil Dövlət kimi daha qüdrətli olması Türkiyənin mənəvi dəstəyi ilə Vətən torpaqlarımızı işğal etmiş erməni vandalları ilə təkbaşına mübarizə aparmasında bir daha təsdiqlənir.



**PREZİDENT İLHAM ƏLİYEV: "AZƏRBAYCAN XALQI HEÇ VAXT BU QARDAŞLIĞI UNUTMAYACAQ"**

Vətən müharibəsinin başlandığı gündən dünyaya "Azərbaycan tək deyil" mesajını ünvanlayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bununla dostluğumuzun, qardaşlığımızın nə qədər sarsılmaz olduğunu, böyük öndərlər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" tezislərinin bir daha reallıqda təsdiqinin təqdimatı oldu. İki qardaş ölkənin müttəfiqliyinin təsdiqi olan Şuşa Bəyannaməsində də böyük öndərlərin bu fikirlərinin Türkiyə-Azərbaycan münasibətlərinin əsasında dayandığı xüsusi qeyd olunub. Həmçinin, Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dövlətlərarası səviyyədə olduğu kimi, şəxsi münasibətlərdə də əsl qardaşlıq nümayiş etdirmələri olduqca önəmli məqamlardır. Prezidentinin bu günlərdə Türkiyəyə işgüzar səfəri çərçivəsində Rize-Artvin Hava Limanının açılış mərasimində söylədiyi fikirlər də qardaş ölkələrimiz arasında münasibətlərin dününə, bugününə və gələcəyinə bir baxış kimi dəyərləndirilməlidir. "Biz hər zaman bir yerdəyik - xoş günlərdə, yaxşı günlərdə, çətin günlərdə də və İkinci Qarabağ savaşı bunu bir daha bütün dünyaya göstərdi...İkinci Qarabağ savaşı bizim müştərək, ortaq şanlı tariximizdir...Savaşın son dəqiqəsinə qədər - Şuşa şəhərində bayrağımız ucalana qədər Türkiyə bizim arxamızda idi, bizə arxa idi, dayaq idi və Azərbaycan xalqı heç vaxt bu qardaşlığı unutmayacaq", söyləyən dövlət başçısı, həm də Türkiyənin gündən-günə gücləndiyini, sürətlə inkişaf etdiyini deyərək vurğulayıb ki, bütün bunların təməlində aparılan uğurlu siyasət, Prezident Rəcəb Tayyib Ərdoğanın böyük əməyi, zəhməti vardır.



Türkiyə bu gün nəinki dünya miqyasında böyük güc mərkəzinə çevrilib, söz sahibi olub, eyni zamanda, ölkə daxilində də böyük layihələr icra etməyə qadirdir.

### ŞAD GÜNDƏ DƏ, DAR GÜNDƏ DƏ HƏMRƏY OLAN QARDAŞLAR

Bəli, istər Azərbaycanın, istərsə də Türkiyənin xoö günlərində də, çətin günlərində də bir-birinin yanında olub, Çünki Azərbaycan-Türkiyə birliyi əbədi və sarsılmazdır. Eyni zamanda, iki dost, qardaş ölkə arasında müttəfiqlik sənədinin 15 İyun - Milli Qurtuluş Günündə Qarabağımızın tacı, musiqi beşiyimiz Şuşada imzalanması dünyaya bu birliyin, həmrəyliyin gələcəyi ilə bağlı bir çox məqamları çatdırdı. Vətən müharibəsində dünyaya "Azərbaycan tək deyil" mesajını ünvanlayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşadan "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür" bəyan etdi. Və bu 44 günlük İkinci Qarabağ müharibəsinin Qələbə Zəfərində iki qardaş birliyi - İlham Əliyev-Rəcəb Tayyib Ərdoğan - "Bir millət, iki dövlət" birliyini nümayiş etdirdi. Dövlət başçımız bu birlikdən qürur duyduğunu söylədi: "Biz də bu qədər möhtəşəm dostumuz olduğu üçün qürurlu və şadıq".Budur, çətin günün sınağından çıxmaq. Budur - bir millət, iki dövlət münasibəti. Doğrudur, bu gün Türkiyə kimi bir güclü dövlətin Azərbacanla bir olması çox dövlətlərin qısqanclığına səbəb olub. Ancaq bir məqamı anlamaq lazımdır ki, Azərbaycan-Türkiyə illərin sınağından çıxmış, bu birlik möhkəmlənmişdir. Bu birliyi isə heç bir qüvvə sındıra bilməz!

### "TEKNOFEST AZƏRBAYCAN" - DÜNYANI HEYRƏTLƏNDİRƏN İKİ DOST, QARDAŞ, MÜTTƏFİQ ÖLKƏLƏR - AZƏRBAYCAN VƏ TÜRKİYƏ SARSILMAZ BİRLİKLƏRİ, HƏMRƏYLİKLƏRİ

Elə bu günlərdə Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğan Bakıda ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalında iştirak etmələri iki dost, qardaş, müttəfiq ölkələr - Azərbaycan və Türkiyə növbəti dəfə sarsılmaz birlikləri, həmrəylikləri ilə növbəti dəfə dünyanı heyrətləndirdilər. Bakıda ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalı gələcəyimiz olan gənclərin bu qardaşlığa verəcəkləri töhfələrin aydın mənzərəsini təqdim etdi. Festivalda Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın iştirakı bu birliyin dünyaya bir daha nümayişi idi. Azərbaycan Prezidenti İlham Əliyev Festivalda çıxışı zamanı bildirdi ki, bizim aramızdakı qardaşlıq bütün Türkiyə və Azərbaycan xalqına örnək olmalıdır.Bəli, dünyada analoqu olmayan qardaşlığın, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" tezisinə əsaslanan reallığın təcəssümüdür. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərləri çərçivəsində səsləndirilən fikirlər və imzalanan çox sayda sənədlər bir daha dünyaya nümayiş etdirir ki, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır və böyük geosiyasi və geoiqtisadi potensiala malik bu iki ölkənin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, habelə bölgədə iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəlmişdir.

### PREZİDENT İLHAM ƏLİYEV: "Müstəqillik günündə Prezident Rəcəb Tayyib Ərdoğanın bizimlə bərabər olması bizim üçün ikiqat bayramdır"




"Bu gün Azərbaycanda bayram günüdür, Müstəqillik Günüdür, bizim ən əziz bayramımızdır. Bu bayramı ikiqat bayram edən əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın bizimlə bərabər olmasıdır".Bunu Prezident İlham Əliyev Bakıda keçirilən "TEKNOFEST-Azərbaycan" Festivalında çıxışı zamanı bildirib."104 il əvvəl müsəlman aləmində Azərbaycan xalqı ilk Xalq cümhuriyyətini qurmuşdur. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, 2 ildən sonra süqut etdi və Azərbaycan öz müstəqilliyini itirdi. Yalnız 1990-cı illərin əvvəlində Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi. 30 ildir Azərbaycan xalqı azad, müstəqillik şəraitində yaşayır, öz həyatını özü qurur və müstəqillik yolu ilə inamla gedir. Bu 30 il ərzində türk qardaşlarımız bizim daim yanımızda olub. Biz 30 il ərzində bu qardaşlıq dəstəyini hər zaman hiss etmişik, bu gün də hiss edirik. Bu gün Türkiyə və Azərbaycan yenə də bir yerdədir", - deyə dövlətimizin başçısı qeyd edib.

### AZƏRBAYCAN PREZİDENTİ: "Türkiyə-Azərbaycan qardaşlığı və birliyi xalqlarımız üçün əsas yol istiqamətidir"

Prezident İlham Əliyev sınaqlardan çıxmış qardaşlığımız, birliyimiz xalqımız üçün əsas yol istiqamətidir: "Biz yaxşı günlərdə də, çətin günlərdə də hər zaman bir-birimizin yanındayıq və elə etməliyik və edəcəyik ki, qabaqda ancaq yaxşı günlər olsun. Türkiyə-Azərbaycan qardaşlığı, birliyi xalqlarımız üçün əsas yol istiqamətidir. Bölgə və dünya üçün də çox önəmli faktordur".Dövlətimizin başçısı deyib ki, Türkiyə-Azərbaycan birliyi təhlükəsizlik, güvənlik, sabitlik faktorudur. Türkiyə Azərbaycan bir yerdə nə qədər inamla addımlasa, bölgəmizdə sülh və barış o qədər də möhkəm olacaq: "Bunu biz və bütün dünya İkinci Qarabağ müharibəsi zamanı gördü. Türkiyə bizim yanımızda idi. Əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarında "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" deməsi bizə əlavə güc verdi, ruh verdi, inam verdi. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq".

### AZƏRBAYCAN PREZİDENTİ: "TEKNOFEST-Azərbaycan" Türkiyə-Azərbaycan birliyinin növbəti nümayişidir"

"Bizim tariximiz parlaqdır və tariximizin ən önəmli anlarında biz bir yerdə idik. Bakının erməni işğalından azad edilməsinə həsr olunmuş hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri çiyin-çiyinə Azadlıq meydanına çıxmışdılar. Bunun təkrarını biz 2021-ci ildə Zəfər paradında gördük. Tarixi Zəfərimizdən sonra yenə də əziz qardaşımla birlikdə Azadlıq meydanında biz Türkiyə və Azərbaycan ordularının hərbi paradını qəbul etdik. Bu, birliyimizin təntənəsi idi, bu, bütün dünyaya verilən aydın mesaj idi. Biz bir yerdəyik, bir yerdə olacağıq, gücümüz də gündən-günə artacaq",-deyən dövləçtimizin başçısı keçən ilə Milli Qurtuluş Günündə Prezident Rəcəb Tayyib Ərdoğanın bizimlə bir olmasına toxunaraq bildirib ki, bu bir daha qardaşlığımızın, birliyimizin nümayişidir: "Keçən il Milli Qurtuluş Günündə - iyunun 15-də hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan Şuşada idi. Bu da çox əlamətdar hadisə idi. 15 iyun da bayram günüdür, 28 may da bayram günüdür. Biz bu bayram günlərini bir yerdə qeyd etdik və tarixi Şuşa bəyannaməsini imzaladıq. Türkiyə və Azərbaycan rəsmən müttəfiqlik zirvəsinə ucaldı və bu müttəfiqlik özünü hər yerdə göstərir - siyasətdə, iqtisadi əlaqələrdə, enerji, nəqliyyat layihələrinin həyata keçirilməsində, mədəniyyətdə, təhsildə, ordu quruculuğu istiqamətində. Bu gün "TEKNOFEST" bizim birliyimizin növbəti nümayişidir".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan festivalda çıxış zamanı Azərbaycanın Müstəqillik Günündə bərabər olmaqdan böyük məmnunluq duyduğunu bildirib: "Müstəqilliyin necə qazanıldığını, nə qədər dəyərli olduğunu çox yaxşı bilən bir millətin övladı olaraq Müstəqillik Gününüzü səmimi qəlbdən təbrik edirəm. İstiqlal və gələcək yolunda apardığımız şanlı mübarizələri şəhidlikləri ilə taclandıran qəhrəmanlarımızı rəhmət və hörmətlə yad edirəm",- deyərək Prezident İlham Əliyevin timsalında Azərbaycan xalqına səmimi qonaqpərvərlik üçün təşəkkür edib: "Xəzərin incisi Bakıda "Bir millət, iki dövlət, tək festival" şüarı ilə dünyanın ən nüfuzlu aviasiya, kosmos və texnologiya festivalı - "TEKNOFEST"i keçiririk. Əziz Sənər hocamıza bu qürur günümüzdə həyecanımızı bölüşdüyü üçün yenə şəxsən öz adımdan və millətim adından təşəkkür edirəm. Badi-Kubədən, yəni, küləklər şəhəri gözəl Bakıdan Nuru Paşanın komandanlığı altındakı Qafqaz İslam Ordusunun azərbaycanlı qardaşlarımızla birlikdə mübarizə apardığı torpaqların hər qarışına, Natəvanın qəzəlinin eşidildiyi ovalıqlara, şəhidimiz Xudayar qardaşımın türkü söylədiyi diyarlara, Gəncəyə, Şuşaya, Füzuliyə, Laçına, Azərbaycanın hər bölgəsinə salam və sevgilərimi göndərirəm. Bu gün bir daha burada nümayiş etdirilən əbədi və əzəli qardaşlığımızı Rəbbim daimi etsin".

### RƏCƏB TAYYİB ƏRDOĞAN: "Diplomatik münasibətlərimiz 30 il əvvəl qurulsa da, taleyimizin birliyi tarixin dərinliklərinədək uzanmaqdadır"

"Bu il diplomatik əlaqələrimizin yenidən qurulmasının 30-cu ildönümünü böyük bir qürurla dərk edirik. Ortaq tariximizdən aldığımız ilhamla aramızdakı dostluq və məhəbbəti daha da sağlamlaşdırır, birlik və bərabərliyimizi daha da möhkəmləndiririk".Bu fikirləri Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakıda keçirilən "TEKNOFEST-Azərbaycan" festivalında çıxışı zamanı səsləndirib."Diplomatik münasibətlərimiz 30 il əvvəl qurulmuş olsa da, taleyimizin birliyi tarixin dərinliklərinə qədər uzanmaqdadır. 1915-ci ildə Çanaqqalada, 1918-ci ildə Gəncədə, Bakıda və Azərbaycanın digər bölgələrində ürəklərimiz və biləklərimiz ortaq mübarizəmizdə yenidən bərabər olmuşdur", - deyə Türkiyə Prezidenti vurğulayıb.

### RƏCƏB TAYYİB ƏRDOĞAN: "Türk millətinin qəlbindəki Azərbaycan sevgisini heç kim çıxarıb ata bilməz"

Türkiyə Prezidenti çıxışı zamanı vurğulayıb ki, Türkiyə Bizlər kədəri də, sevinci də bir olan, sözdə deyil, əslində də qardaş olan iki dövlətik, iki xalqıq. Göylərdə dalğalanan ayparalarımız kimi, biz eyni inancı bölüşən qədim bir millətin mənsublarıyıq: "Eynilə Anadolu kimi, bura bizim də torpağımızdır. Eynilə Türkiyə kimi, bura bizim də Vətənimizdir. Eynilə doğulduğumuz yerlər kimi, bura bizim də öz yurdumuzdur. Eyni ilə Türkiyənin hər bir qarışı da sizlərin Vətəninizdir, yurdunuzdur".Rəcəb Tayyib Ərdoğan vurğulayıb ki, Türk millətinin qəlbindəki Azərbaycan sevgisini heç kim çıxarıb ata bilməz. İki qardaşı heç bir məsafə ayıra bilməz, könüllərimiz arasında kimsə sərhəd çəkə bilməz.Bəli, bu gün Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanda səfərdə olarkən dediyi kimi: "Bundan sonra Güclənən bir Azərbaycan, Güclənən bir Türkiyə vardır. Dünya birliyində də, şübhəsiz ki, bu iki ölkənin yeri çox önəmli olmaqdadır və olacaqdır".

Bir sözlə, iki güclü ölkənin liderləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin dəmir siyasəti daha da möhkəmlənəcək, Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı sadəcə olaraq kəlam deyil, bu, gerçəkdir. Artıq bu reallıq GÜCLƏNƏN BİR AZƏRBAYCAN, GÜCLƏNƏN BİR TÜRKİYƏ VARDIR! Qarabağ Azərbaycandır! Azərbaycan-Türkiyə "Bir millət, iki dövlətdir!"Bu gün bir millət, iki dövlət - Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu, müttəfiqliyi tarixindəki ən yüksək zirvəyə yetişib. İndi Azərbaycan və Türkiyə bütün beynəlxalq layihələrdə birgə iştirak edir, xoş gündə də, dar gündə də bir-birinin yanında olur, dayağını, dəstəyini göstərir. Bütün çətinliklərə, problemlərə qarşı çiyin-çiyinə mübarizə aparır və birgəliyin verdiyi əzmlə, güc ilə hər zaman qalib gəlir, bundan sonra da QALİB OLARAQ GÜCLƏNƏCƏK!!!

***RƏFİQƏ KAMALQIZI***

# "Heydər Əliyevin adı tariximizə həm də böyük xilaskar kimi düşüb"



**"15 İyun -Milli Qurtuluş Günü Azərbaycan xalqının sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. İyunun 15-i xalqımız üçün əsl qurtuluş tarixidir və bu tarixi yaradan, Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, xalqına arxalanan Ulu Öndər Heydər Əliyevdir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Ülviyyə Həmzəyeva bildirib.**

Onun sözlərinə görə, məhz elə buna görə Heydər Əliyevin adı tariximizə həm də böyük xilaskar kimi düşüb: "XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi və ölkədə hakimiyyət böhranı başladı. Belə ki, hakimiyyət böhranı 1993-cü ilin iyununda pik həddə çatdı, xaos- anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəldi. Bu anlarda nəinki dövlət müstəqilliyimiz, hətta milli varlığımız belə birbaşa hədəfə alındı. Beləliklə, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi yaddaşlarda qaldı.

Beləliklə, 1993-cü il iyunun 9-da ulu öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı.

Hər çətinliyə sinə gələrək, iyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. Ulu Öndər deyirdi: "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz".Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu.

Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, dünyada Azərbaycanın nüfuzu daha da artır. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır.

Qazanılan bütün nailiyyətlərin əsasında, həmçinin torpaqlarımızın 44 gün ərzində azad olunması və "Zəfər" günümüzdən bu yana keçirilən bütün ictimai-siyasi, iqtisadi-mədəni uğurlarımız Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs üzrə və Prezident, Ali Baş Komandan İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu gün xalqımız müstəqil Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edir! Milli Qurtuluş günümüz yeni tarixdə, "Zəfər" tariximizin işığında mübarək olsun!".

***Abutel İlhamqızı***

---

**TƏRS BAXIŞ+AKTUAL**




# ABŞ-ın Dövlət Departamenti erməni vandallığından bəhs etsə də

## *YUNESCO susmaqda və ikili standartlardan çıxış etməkdə israrlı olduğunu sərgiləyir*



**ABŞ-ın Dövlət Departamenti 2020-ci ilə qədər Ermənistanın işğalı altında qalan Azərbaycan ərazilərində erməni millətçiləri tərəfindən dağıdılmış dini obyektlərə qarşı vandallıq aktları ilə bağlı məlumat verib. Qeyd olunur ki, 2021-ci il Beynəlxalq Dini Etiqad Azadlığı Hesabatında ABŞ Dövlət Departamentinin Beynəlxalq Dini Etiqad Azadlıqları İdarəsi azərbaycanlılara məxsus əksər məscidlərin, ziyarətgahların və məzarlıqların, yüzlərlə dini obyektlərin təhqirlərə məruz qaldığını vurğulayır.**

"Füzuli rayonunda 19-cu əsrə aid Hacı Ələkbər məscidi dağıdılıb, Ağdamdakı Cümə məscidinin üzərinə erməncə qrafitlər yazılıb, mehrabı isə güllələrə tuş gəlib", sənəddə bildirilir və əlavə olunur ki, Ağdam boyu qəbiristanlıqlar təhqir olunub, talan edilib və ya dağıdılıb. O cümlədən, şəhərin İmarət Qərvənd qəbiristanlığında 18-ci əsrə aid müqəddəs və tarixi məzarlar dağıdılaraq təhqirlərə məruz qalıb, insan qalıqları qəbirlərdən çıxarılaraq naməlum istiqamətlərə aparılıb. Qəbiristanlıqda yalnız bir sınıq qəbir daşı qalıb.

### "Beynəlxalq fotojurnalist Reza Deqati Füzuli, Ağdam, Zəngilan, Kəlbəcər və Cəbrayılda onlarla Azərbaycan qəbiristanlığının sistemli şəkildə dağıdılmasını sənədləşdirib"

Eyni zamanda o da bildirilir ki, erməni vandallıq aktları dünyanın bir sıra tanınmış fotoqraflarının obyektivlərində qeydə alınıb, fotosənədlər şəklində dünya ictimaiyyətinə təqdim edilib. "Beynəlxalq fotojurnalist Reza Deqati Füzuli, Ağdam, Zəngilan, Kəlbəcər və Cəbrayılda onlarla Azərbaycan qəbiristanlığının sistemli şəkildə dağıdılmasını sənədləşdirib. Qəbirlər müxtəlif tikinti texnikaları vasitəsi ilə dağıdılıb", sənəddə deyilir və bildirilir ki, ölmüş insanların qalıqları eksqumasiya edilib, qızıl dişləri çıxarılıb, kəllə və sümüklər qəbiristanlıqların hər tərəfinə səpələnib, erməni məzarları isə faktiki olaraq toxunulmamış qalıb.

### "Çörək Muzeyinin yerləşdiyi Ağdam şəhəri, eləcə də yer üzündən tamamilə silinmiş Füzuli şəhəri indi kabus şəhərləri xatırladır"

Hesabatda diqqət çəkən daha bir fakt Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində mədəni irslərə qarşı vandalizm aktlarının adi hal aldığı bildirilir və işğal illərində abidələrin kütləvi şəkildə dağıdılmasının görüntüləri, məhz ərazilər azad edildikdən sonra internet resurslarında yayılıb. "Dağıntılara məruz qalan obyektlər arasında məscidlər, abidələr, muzeylər, heykəllər və s. tikililər var. Çörək Muzeyinin yerləşdiyi Ağdam şəhəri, eləcə də yer üzündən tamamilə silinmiş Füzuli şəhəri indi kabus şəhərləri xatırladır", məlumatda vurğulanır.

Ümid edək ki, uzun illər erməni vandallığına qarşı göz yuman və hətta ərazilərimiz işğaldan azad edildikdən sonra belə, Qarabağa gəlməyini "acı bağırsaq" kimi uzadan YUNESCO öz inadkarlıq daşını ətəyindən tökərək bu reallıqları nəhayət ki (!) qeydə alacaq. Daha dəqiq desək, üzərinə düşən vəzifəsini yerinə yetirərək erməni vəhşiliyi ilə bağlı həqiqətləri bəyan edəcək.

### YUNESCO erməni naziri Dumanyanın dumanlı fikirlərindən necə vəcdə gəldi?

Yeri gəlmişkən, bu, həmin YUNESCO-dur ki, qurum rəhbərinin müavini Ottone bir neçə gün əvvəl Ermənistanın elm, təhsil və idman naziri Dumanyanla görüş keçirib. Əgər erməni mətbuatına inansaq (hərghah qətiyyən inanmaq olmur) cənab Ottone erməni naziri Dumanyanın "Azərbaycan bərpa adı altında "erməni mədəni irsini" (dırnaqlar bizimdir) dağıdır, vandalizm törədir" tipli dumanlı fikirlərindən dərhal sonra bildirib ki, artıq YUNESCO bununla bağlı öz missiyasını təcili şəkildə həmin yerlərə göndərməyə hazırlaşırmış (?!) Lakin onlar unudurlar ki, belə bir ikili standartlar səviyyəsində YUNESCO əsla öz nüfuzunu yüksəldə bilməz. Azərbaycan heç vaxt buna imkan verməyəcək. Yəni bu qurum bilməlidir ki, Qarabağ Azərbaycanın ərazisidir və daha məqbul olardı ki, Ottone təcili şəkildə Qərbi Azərbaycana - indiki Ermənistana səfər etsin, missiya göndərsin və eyni zamanda, orada məhv edilmiş qədim Azərbaycan irsi barədə nəticələr çıxarsın. Habelə, daha yaxşı olardı ki, YUNESCO ən azından ABŞ Dövlət Departamentinin sözügedən hesabatından da nəticə çıxarsın və düşünsün, düşünsün... Nə qədər ki, gec deyil!

***Rövşən RƏSULOV***

ANALİTİK + AKTUAL

# Alo, Paşinyan, fikrin nədir..?



**Azərbaycan öz yolunu davam etdirir və bu yol bilavasitə Xankəndiyə doğru gedir!**

Beləliklə, Ermənistan üçtərəfli bəyanatda irəli sürülən bəndlərə demək olar ki, əməl etmir və bu məsələdə Rusiya sülhməramlıları kontingentinin (RSK) də müəyyən mənada rol alması Azərbaycan cəmiyyətində haqlı iradlar, hiddət və təəssüflər doğurur. Buna misal olaraq biz Ermənistanın baş prokurorunun, eləcə də daha bir rəsmi nümayəndəsinin RSK-nın Qarabağda müvəqqəti yerləşmiş nəzarət məntəqəsindən (Laçın dəhlizindən) Xankəndiyə buraxılmalarını göstərə bilərik. Yəni fakt budur ki, bu adamlar rəsmi şəxslərdir, üstəlik erməni baş prokuroru yaradılmış üçtərəfli formatlardan birinin təmsilçisidir. Misal üçün, xatırlada bilərik ki, Azərbaycan, Rusiya və Ermənistan baş prokurorlarının görüşləri keçirilib. Və belə olan halda Ermənistan tərəfinin bu qədər həyasızlıq nümayiş etdirmələri həm də qarşı tərəfin bütün hədləri aşdığını sübuta yetirmiş olur. Və bunun daha bir tərəfi də var. Məsələ ondadır ki, Ermənistan hökumətinin nümayəndələrinin Xankəndiyə səfərləri bilavasitə Nikol Paşinyan tərəfindən reqlamentləşdirilir. Maraqlısı da budur ki, cərəyan edən hadisələr məhz sülh razılaşmalarının əldə edilməsi prosesi çərçivəsində baş verir. Bu isə belə qənaətə gəlməyə zəmin yaradır ki, ya Ermənistan tərəfi hazırkı dövrə qədər əldə edilmiş razılaşmaları pozmağa çalışır, ya da proses İrəvanın istədiyi çərçivədə gedir...

Bu arada onu da qeyd edə bilərik ki, bu yaxınlarda KTMT ölkələrinin XİN başçılarının, o cümlədən Lavrovun da görüşləri gözlənilir...

### RSK Ermənistanın həmin siyasətini həyata keçməsi üçün şərait yaradır!

İrəvanda anlayırlar ki, həyata keçirilən qanunsuz səfərlər Azərbaycanda ictimai rəyə təsir edir və anti-Rusiya ritorikasının yaranması istiqamətində obyektiv şəraitlər yaradır. Və əlbəttə ki, nəticədə Qarabağda müvəqqəti yerləşdirilmiş RSK hədəfə alınır. Buradan isə növbəti nəticə hasil edilə bilər - RSK da Ermənistanın həmin siyasətini həyata keçməsi üçün şərait yaradır!

Bu arada daha bir nüansı da qeyd edə bilərik. Mövcud situasiyada RSK-nın mandatının olmaması həmin məsələdə öz rolunu oynamaqdadır. Erməni rəsmilərinin Qarabağa səfərləri mövzusu əyanidir və sənədlərdə reqlamentləşdirilmir.

### Hansı cinah ki, münaqişənin nizamlanmamasını iddia edirsə demək ki, müharibə istəyir

Onda daha bir sual yaranır: bəs Azərbaycan hansı ölçüləri götürəcək? Məlumdur ki, rəsmi Bakı sülh gündəliyinin irəlilənməsi üçün bütün imkanlardan maksimum istifadə edir və bu maksimumlar erməni tərəfinin müxtəlif təxribatçı əməllərinə baxmayaraq istifadə olunur. Fakt budur ki, münaqişə başa çatıb və sülhün əldə olunması yönündə addımlar atmaq vacibdir. Və digər tərəfdən, hansı cinah ki, münaqişənin nizamlanmamasını iddia edirsə demək ki, müharibə istəyir. Çünki müharibə münaqişənin həll olunması üçün öndə gedən variantlardan biridir. Ona belə bir nəticə də hasil etmək olar ki, Ermənistan müharibə istəyir (?!)

O cümlədən, Brüssel və Moskva formatlarının qarışması elə bir situasiyaya gətiribçıxarır ki, belə məqamlarda qəbul edilən qərarlar fraqmentləşdirilməlidir və belə bir mövcudluq erməni tərəfini qane etmir. Ancaq bu da Ermənistanın öz problemidir və belə əbədi davam edə bilməz. Açığını desək, İrəvan müharibə eskalasiyasını istəyirsə, Bakı ona bu sürprizi hər an təqdim edə bilər, amma necə deyərlər, sonradan "dеmədi-demə" məsələsi də xatırlanmalıdır!





### Məqsəd - 2020-ci ilin 10 noyabr üçtərəfli bəyanatından hazırkı vaxta qədər əldə edilmiş bütün razılaşmaları sıfırlamaq

Başqa tərəfdən, Ermənistan "status" məsələsini heç bir formata - nə Brüsselə, nə də Moskvaya daşıya bilmir və mövcud təxribatçı qanunsuz səfər addımları ilə eskalasiyaya getməyə cəhdlər göstərir. Məqsəd - 2020-ci ilin 10 noyabr üçtərəfli bəyanatından hazırkı vaxta qədər əldə edilmiş bütün razılaşmaları sıfırlamaq. Əslində telefona bağlılıq xəstəliyi olan Paşinyandan soruşulmalıdır ki, alo, Paşinyan son fikrin nədir..?

Yeri gəlmişkən, ermənilərin sosial müdafiə nazirlərini bir müddət əvvəl Xankəndiyə səfəri cavabsız qalmışdı, halbuki Ermənistan sərhəddə komissiyanın yaradılmasına getdi. Ancaq daha bir danılmaz amili də unutmaq olmaz - Ermənistanın baş prokurorunun Qarabağa qanunsuz səfəri hər halda cavabsız qalmayacaq və itirən məhz və məhz erməni tərəfi olacaq. Azərbaycan öz yolunu davam etdirir və bu yol bilavasitə Xankəndiyə doğru gedir!

***Rövşən RƏSULOV***

***P.S. Təsdiqlənməmiş məlumata görə, qanunsuz yollarla Laçının Zabux kəndində məskunlaşmış livanlı ermənilərin bu əraziləri tərk etmələri haqqında da informasiyalar gəlməyə başlayıb. Gözləyək...***

# "Ermənistan sülh prosesinə böyük zərbə vurur"




"Ermənistan baş prokurorunun suveren Azərbaycan ərazisi olan Qarabağa qanunsuz səfər etməsi cinayətdir. Bu hadisə bir daha göstərir ki, Ermənistan rəhbərliyində təmsil olunan şəxslər Azərbaycanla sülh danışıqlarına, bölgədə sülhün və təhlükəsizliyin bərqərar olmasına ciddi zərbə vurmaqda davam edirlər". Bu fikirləri SİA-ya açıqlamasında Trend BİA-nın Baş direktor müavini, siyasi ekspert Sahil Kərimli bildirib.

Onun sözlərinə görə, Ermənistan hakimiyyəti bu məsuliyyətsiz davranışları ilə beynəlxalq hüququn norma və prinsiplərinə böyük hörmətsizlik edirlər: "Əlbəttə ki, bu qanunsuz addımlar dünya ictimaiyyəti, nüfuzlu beynəlxalq dairələr tərəfindən də sərt şəkildə pislənilməlidir. Azərbaycan dövləti Ermənistana sülh təklif edir, dövlətlərin qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünü tanıması, sərhədlərin müəyyənləşdirilməsi, münasibətlərin normallaşdırılması, kommunikasiyaların açılması üçün davamlı səylər göstərilir. Amma çox təəssüf ki, Ermənistan rəhbərliyi, dövlətdə təmsil olunan rəsmi şəxslər qanunsuz əməlləri ilə sülh prosesinə mane olurlar. Əminliklə demək olar ki, Azərbaycan dövləti bütün imkanları ilə bu cinayəti törədən şəxslərin ciddi cəzalanmasına nail olacaq. Ermənistan baş prokurorunun, eləcə də digər bu kimi şəxslərin Azərbaycanın ərazi bütövlüyünə açıq hörmətsizlik etməsinə Qarabağda fəaliyyət göstərən Rusiya sülhməramlılarının biganə qalması da böyük təəssüf doğurur. Sülhməramlıların konkret vəzifəsi Qarabağda sülh və təhlükəsizliyə nəzarət etmək, ərazidə baş verə biləcək hər hansı insidentlərin qarşısını almaq, cinayətkar əməllərlə mübarizə aparmaqdır. Lakin, görünən odur ki, sülhməramlılar öz fəaliyyətlərini düzgün qura bilmirlər. İstənilən halda baş verən proseslər pislənilməlidir və bu qanunsuz əməllərə son qoyulmalıdır.

***Abutel İlhamqızı***

# Anti-Azərbaycançı sayt və sosial şəbəkə istifadəçilərinin çirkin üzü

***Bu gün sosial şəbəkələr müasir dövrün ən mühüm yenilik və nailiyyətlərindən biridir, insan həyatı və münasibətlərinə ciddi təsir göstərən, hətta onların xarakterində dəyişikliklərə səbəb olan bir amildir. O mənada ki, sosial şəbəkələr insanlar arasında məkan və məsafə məfhumunu aradan qaldırır, bir-birindən minlərlə kilometr aralıda olan fərdlərə asanlıqla təmasa girmək, həm ictimai məzmunlu fəaliyyətdə olmaq və müzakirələr aparmaq, həm də şəxsi əlaqələr qurmaq üçün geniş meydan açır. Bu baxımdan, sosial şəbəkələri XXI əsrin unikal imkanı kimi dəyərləndirmək olar. Lakin təəssüf doğuran odur ki, hər bir müsbət imkandan özünün mənfi məqsədləri, çirkin niyyətləri üçün istifadə edənlər də var.***



Qeyd edək ki, bir neçə il əvvəl Prezident İlham Əliyev Dünya Xəbər Agentliklərinin V Konqresinin iştirakçıları ilə görüşdə söz və mətbuat azadlığı ilə bağlı ölkəmizə yönəlik iddiaları qətiyyətlə rədd edərkən demişdir: "Ölkəmizdə əgər azad internet fəaliyyət göstərirsə, senzura yoxdursa, əhalinin 75 faizi internet istifadəçisidirsə, mətbuat azadlığının məhdudlaşdırılmasından necə danışmaq olar?! Əgər sosial şəbəkədə - "Feysbuk"da və "Tvitter"də 2 milyon insanımız varsa, mətbuat azadlığını necə məhdudlaşdırmaq olar?!" Şübhə yoxdur ki, bu sözlərin deyilməsindən keçən müddət ərzində Azərbaycanda həm internet, həm də sosial şəbəkə istifadəçilərinin sayı bir qədər də artıb. Halbuki bu azadlıq heç də dünyanın bütün ölkələrində təmin edilmir. Bir sıra ölkələrdə bu və ya digər səbəblərdən sosial şəbəkələrə çıxışa tam və ya qismən məhdudiyyətlər tətbiq olunur. Azərbaycanda da zaman-zaman bununla bağlı haqlı narahatlığa söykənən müəyyən çağırışlar səslənsə də, Prezident İlham Əliyev azad internetin və sosial şəbəkələrin sərbəst fəaliyyətinin prinsipial tərəfdarı kimi çıxış edir. Təəssüflər olsun ki, ölkə başçısının dövlətimiz və cəmiyyətimiz üçün böyük və strateji əhəmiyyət daşıyan bu mövqeyi heç də bütün vətəndaşlar tərəfindən düzgün qiymətləndirilmir, yaradılmış imkandan sui-istifadə edən fərdlər və qruplar müşahidə olunur. Bir sıra hallarda isə bütün mənəvi-əxlaqi çərçivələrin aşılması ilə təhqirin, söyüşün baş alıb getdiyini görürük ki, buna da heç bir vəchlə biganə qalmaq olmaz.

### "Sapı özümüzdən olan baltalar"....

Təəssüf doğuran odur ki, bu gün Azərbaycanın uğurlarını həzm edə bilməyənlər yenə də sosial şəbəkələrdə "sapı özümüzdən olan baltalar" yenə də həyasızcasına dövlətin, millətin maraqlarını heçə sayan antimilli ünsürlər Azərbaycan əsgəri, qazisi və nəhayət, Azərbaycan xalqı adından danışırlar. Bunu 44 gün ərzində əldə etdiyimiz Qələbə zamanı daha aydın gördük. Belə ki, 44 günlük Vətən müharibəsi, ölkə həyatı üçün çox böyük hərbi siyasi məna kəsb etdi, ölkə daxili siyasəti şərtləndirən əsas amilə çevrildi. Xalqımızın və Ali Baş Komandanın rəhbərliyi ilə bu gün yeni bir tarix yazıldı. Qarabağı bizə qaytaran qəhrəman əsgər və zabitlərimiz haqq mübarizəmizdə igidlik göstərdi. Bunu nəinki erməni xalqı, bütün dünya gördü və görür. Və Vətən Müharibəsi zəfərini həzm edə bilməyənlər Paşinyan səviyyəsində irəli gedə bilməyənlər, erməni dəyirmanına su tökməklə abırsızlıqlarını nümayiş etdirən - Əli Kərimli, öz savadsızlıqları və səviyyəsizlikləri ilə seçilən mətbuat orqanı ilə informasiya agentliklərini fərqləndirə bilməyən Qənimət Zahid və bu kimi məkrli niyyətlilər təcavüzkar ölkənin - özləri kimi başı boş, savadsız Ermənistanın baş naziri Nikol Paşinyanı və bu ölkənin olmayan "iqtisadiyyatını" sitat gətirənlərə nə ad vermək olar? Vicdansızlıq və nankorluq! Son dövrlər isə onlar ölkənizə qarşı kampaniya vasitəsi kimi internet vasitələrindən - müxtəlif saytlardan və sosial şəbəkələrdən daha çox istifadə etməyə başlayıblar. Əsas hədəf isə yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycanda vətəndaş qarşıdurması alovlandırmaq. Lakin bu gün sosial şəbəkələrdən şəxsi maraqları naminə açıq təhqirlər yağdırmaq, qarşıdurma yaratmaq, ictimai aqressiyaya rəvac vermək yolu ilə getməyi üstün tutanlar bilməlidirlər ki, fərdi iddiaların milli maraqlardan üstün tutmaq qətiyyən yolverilməzdir. Bütün narazılıqlar və tənqidlər qanuni vasitələrlə və əxlaq çərçivəsində ifadə olunmalıdır.




### Hikmət Hacıyev: "Sosial media saxta xəbərləri böyüdür"

Bu yerdə Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Antalya Diplomatiya Forumu çərçivəsində keçirilən "Virtual Dünyada İnfodemiya və Saxta Xəbərlər" adlı panel sessiyasında çıxışı zamanı sosial media ilə bağlı dediyi fikirləri bir daha xatırlatmaq yerinə düşər: "Sosial media saxta xəbərləri böyüdür və süni intellekt bu problemi daha da gücləndirir". Hikmət Hacıyev onu da deyib ki, əslində, informasiya müstəvisində saxta xəbərlərin geniş yayılması yeni hadisə deyil. Bu çirkin tendensiya xüsusilə İkinci Qarabağ müharibəsi dövründə özünü büruzə verib. Sosial şəbəkənin erməni seqmentində Azərbaycan Silahlı Qüvvələrinin məğlub olmasına, texnikasının məhv edilməsinə, Azərbaycan hərbçilərinin guya cinayət törətməsinə, müharibədə Yaxın Şərqdən olan muzdluların Azərbaycan tərəfdən "iştirakına" dair kütləvi şəkildə foto, video və məlumatlar yayılıb. Saxta.info dəfələrlə sosial şəbəkənin erməni seqmentində və erməni mediasında yayılan bu cür saxta xəbərləri araşdıraraq ifşa edib.

### QHT adı altında fəaliyyət göstərən qüvvələrin çirkin maraqları

Qeyd edək ki, bu gün Azərbaycan müstəqillik əldə etdikdən və demokratik inkişaf yolu tutduqdan sonra bu vaxta qədər Azərbaycana qarşı müxtəlif vasitələrdən də istifadə edilib. Belə ki, bu da danılmaz faktdır ki, müxtəlif güc mərkəzləri milyonlarla vəsait xərcləyərək bu QHT-lər vasitəsilə Azərbaycanda ictimai-siyasi vəziyyətin pozulmasına nail olmaq istəyir, müxtəlif tədbirlər həyata keçirirlər. Bu gün isə həmin QHT adı altında fəaliyyət göstərən qüvvələrin, qrupların hamısı sosial şəbəkələrə keçib və buradan öz çirkin kampaniyalarını davam etdirir, Azərbaycanda və başqa ölkələrdə ictimai-siyasi sabitliyin pozulmasına cəhd edirlər. Ancaq bütün səylərə baxmayaraq, bunlar indiyədək heç bir nəticə verməyib. Çünki Azərbaycan dövləti heç vaxt imkan verməz ki, onların bu kimi ədalətsiz, qərəzli və subyektiv iddiaları dünya ictimaiyyətinə təlqin olunsun .Bir sözlə, bu gün Azərbaycana qarşı "qara piar" aparan xainlərin fəaliyyəti mütləq araşdırılmalı, düşmən təxribatlarında iştirak edənlər qanun qarşısında cavab verməlidirlər.

***RƏFİQƏ HÜSEYNOVA***

# BMT-dən xəbərdarlıq: Dünya ciddi ərzaq, enerji və iqtisadi böhranın astanasındadır!

***Birləşmiş millətlər təşkilatı xəbərdarlıq edib ki, rusiya və ukrayna arasındakı müharibə səbəbindən dünya indiyə qədər ən ciddi ərzaq, enerji və iqtisadi böhranın astanasındadır. SİA-nın əldə etdiyi məlumata görə, bunu BMT-nin baş katibi Antonio Quterreş bildirib. O qeyd edib ki, müharibə səbəbindən bu il daha 47 milyon insan qida çatışmazlığı ilə üzləşə bilər. Bmt rusiyanın ukraynaya qarşı müharibəsinin ərzaq, enerji və maliyyə sistemlərinə təsiri ilə bağlı yeni hesabat yayıb. Hesabata görə, 94 ölkədə 1,6 milyard insan ukrayna müharibəsinin fəsadları ilə üzləşib. Hazırda bu insanlar ərzaq və neft qiymətlərinin artması ilə mübarizə aparır.***



Hesabatda vurğulanır ki, rusiya-ukrayna müharibəsi səbəbindən dünya indiyə qədər ən ciddi ərzaq, enerji və iqtisadi böhranın astanasındadır. Hesabatla bağlı bmt baş qərargahında jurnalistlərə açıqlama verən baş katib antonio quterreş bunları deyib: "müharibənin ərzaq təhlükəsizliyi enerji və maliyyəyə üzərindəki təsiri şiddətlidir və getdikcə sürətlənir. Müharibə misli görünməmiş aclıq və yoxsulluq, eyni zamanda sosial və iqtisadi xaos gətirir".

Heç bir ölkənin bu müharibənin təsirindən xilas ola bilməyəcəyini bildirən quterreş, bu il müharibə səbəbiylə 47 milyon daha çox insanın qida çatışmazlığı ilə üzləşə biləcəyini bildirib. Ərzaq və enerji bazarlarına sabitlik gətirmək üçün ukrayna taxılının və rusiya gübrəsinin qlobal bazarlara qaytarılması lazım olduğunu deyən quterreş, gübrələrin təhlükəsiz və maneəsiz ixracına çağırıb. Bmt baş katibi eyni zamanda qara dəniz vasitəsilə ukrayna taxılının da daşınmasının vacib olduğunu vurğulayıb.

# 15 İyun - Azərbaycan xalqının xilaskarlıq və zəfər tarixi

1993-cü il 15 iyun dövlətçiliyimizin iflasa uğrama təhlükəsindən xilas tarixi kimi yeni bir dövrün başlanğıcıdır. 1991-ci il 18 oktyabr tarixində "Müstəqillik Aktı"nın qəbul edilməsinə baxmayaraq cəmi 1 il yarım ərzində Azərbaycan dərin siyasi-iqtisadi böhranla üzləşdi. Tarixin müxtəlif dönəmlərində olduğu kimi bu zaman da daxili çəkişmələrin və bundan istifadə edən xaricdəki məkrli qüvvələrin əməlləri nəticəsində dövlətçiliyimizə çox ağır zərbələr vurulmuşdu. Növbəti belə vəziyyət XX əsrin 90-cı illərində Azərbaycanın bölüşdürülməsi və onun bir dövlət kimi tarix səhnəsindən silinməsi planının davamı idi. Ona görə ki, müstəqilliyimizin və milli birliyimizin sarsıldığı tarixi bir məqamda Heydər Əliyev dühası xalqını xilas etmək missiyasını yerinə yetirməklə öz taleyini Azərbaycan xalqının canı qanı bahasına əldə etdiyi müstəqilliyinin qorunmasına həsr etdi.

Xilaskarlıq missiyası

Əbəs deyil ki, bu hadisə haqqında danışarkən, 15 iyunun Milli Qurtuluş Günü tariximizə qızıl hərflərlə yazıldığı xüsusilə vurğulanmaqdadır. Çünki kimsəyə sirr deyil ki, ulu öndər Heydər Əliyevin qayıdış ərəfəsi ölkə idarəolunmaz bir həddə çatmışdı. Ölkə vətəndaş müharibəsi ərəfəsində idi. Belə çətin məqamda bbir liderə ehtiyac var idi. Respublikanın bir qrup ziyalısı Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevə "SƏS" qəzeti vasitəsi ilə müraciət etdi. Müraciətdə Yeni Azərbaycan Partiyasının yaradılması və partiyaya Heydər Əliyevin sədrlik etməsi arzuları ifadə olunurdu. Əvvəlcə buna razılıq verməyən Ulu Öndər Heydər Əliyev sonralar insanların çoxsaylı xahişlərini müsbət cavablandırdı. Çavabı da "SƏS" qəzetində dərc olundu. Nəhayət, 1992-ci il noyabr ayının 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi və Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi.Ümummilli Lider Heydər Əliyevin siyasi rəhbərliyə ikinci qayıdışı çətin anlara təsadüf edilir. Belə ki, 1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı.



*FÜZULİ ABDULLAYEV,*
*YAP Ağsu rayon təşkilatının sədri*

1993-cü il iyunun 9-da Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev xalqın təkidi və tələbi ilə Bakıya qayıdıb, ölkənin xaos, vətəndaş qarşıdurması, dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən xilas edilməsi tarixi missiyasını həyata keçirməyə başlayıb. Belə bir vəziyyətdə o zamankı hakimiyyət Ulu Öndər Heydər Əliyevi Bakıya dəvət etməyə məcbur oldu, xalqın təkidi tələbi və iqtidarın çoxsaylı xahişi ilə Ümummilli Liderimiz Bakıya qayıtdı.

Ulu Öndər Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də də Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.Ulu Öndər Heydər Əliyevin qayıdışı ilə ölkənin həyatında yeni bir ab-hava yarandı. Həm ölkəmiz dünyanın siyasi mənzərəsində öz yerini müəyyən etdi, həm Azərbaycan bir çox beynəlxalq təşkilatların, o cümlədən, Avropa Şurasının tam hüquqlu üzvü oldu, həm də ölkənin iqtisadi həyatı dirçəlməyə başladı. Xarici iqtisadi sərmayələrin ölkəyə axını məhz o böyük şəxsiyyətin yaratdığı stabillik sayəsində mümkün oldu. Əsrin ən böyük layihələrindən olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin əsası da məhz o böyük şəxsiyyətin iştirakı ilə qoyulmuşdu.

Ulu Öndər həmişə bildirirdi ki, iqtisadiyyatı güclü olmayan dövlət öz yerini müəyyən edə bilməz. İqtisadiyyatın bütün sahələri kimi dəmir yolunda da bu illər ərzində bir çox nəhəng işlərin görülməsi məhz onun qayğısı və nəzarəti sayəsində mümkün olmuşdu. Bəli, böyük siyasətçi Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə yenidən qayıtması tarixi bir şans idi. Biz hamımız yaxın tarixin həm müşahidəçiləri, həm də iştirakçılarıyıq. Bu hadisələr bizim gözümüzün qarşısında baş verib. Heydər Əliyev yenidən siyasi rəhbərliyə qayıtmaqla, əslində, ölkəmizi sürükləndiyi uçurumdan xilas etdi. Bir tərəfdən xarici düşmənlə üz-üzə qalan ölkəmiz, eyni zamanda daxildəki səriştəsiz rəhbərlərin ucbatından biganəlik burulğanına yuvarlanmışdı.Bu gün isə Prezidenti cənab İlham Əliyev məhz Heydər Əliyev siyasi kursunu uğurla davam etdirməklə ölkəmizin demokratik imicinin möhkəmlənməsini təmin edir. Bu gün Prezidenti cənab İlham Əliyevin uğurla həyata keçirdiyi islahatlar nəticəsində Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasına çıxıb. Artıq Azərbaycan Respublikası Avropanın enerji təhlükəsizliyi məsələlərində mühüm rol oynayır. Əlbəttə ki, bütün bunların əsasında Ulu Öndərin hakimiyyətə qayıdışı ilə başlayan Milli Qurtuluş dayanır. Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycanın tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilib.

Bu gün məhz Ulu Öndər Heydər Əliyevin siyasi varisi Azərbaycan Prezidenti İlham Əliyevin apardığı "Dəmir yumruq" siyasəti 30 il düşmən əsarətində olan torpaqlarımız 44 gün davam edən İkinci Vətən Müharibəsini Qələbə zəfəri ilə başa vurdu, ərazi bütövlüyümüz bərpa olundu, haqq, ədalət qalib gəldi. Məhz Ulu Öndər Heydər Əliyevin yenidən ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə müstəqilliyimiz əbədi oldu və bu gün Azərbaycan 104 illiyini qeyd etdiyimiz Cümhuriyyətimizin taleyini yaşamadı. Azərbaycanın tarixinə Zəfər Gününün yazılması bu yolun uğurlu davamının, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ata vəsiyyətini yerinə yetirdiyinin təqdimatıdır. Xalqımız əmindir ki, müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək.

# Şəhid Emin Əmrahovun doğum günündə xatirəsi anılıb

**Ağstafa rayonunda Vətən müharibəsi şəhidi Əmrahov Emin Əvəz oğlunun doğum günündə əziz xatirəsi yad olunub. Yeni Azərbaycan Partiyası Ağstafa rayon təşkilatının sədri Etibar Hacıyev, Ağstafa Rayon İcra Hakimiyyəti aparatının "Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsi"nin müdiri Ariz Qədiməliyev, Ağstafa Rayon Gənclər və İdman İdarəsinin rəisi Əziz Məsmalıyev, "Ağstafa Gənclər evi" Sosial Xidmət müəssisəsinin direktoru Nicat Vəkilov, Ərazi Partiya Təşkilatının fəalları, şəhidimizin ailə üzvləri, şəhid ailələri, qazilər və rayon ictimaiyyətinin nümayəndələri şəhidin məzarını ziyarət ediblər, məzarı önünə gül dəstələri düzüblər və ruhuna dualar oxuyublar.**



Tədbir çərçivəsində digər Vətən müharibəsi şəhidlərinin də məzarları ziyarət olunub, məzarları önünə gül dəstələri düzülərək, əziz xatirələri ehtiramla anılıb.

Daha sonra tədbir iştirakçıları şəhid Emin Əmrahovun ailə üzvlərini ziyarət edərək, onların qayğıları ilə maraqlanıblar, dərin hüzünlə başsağlığı veriblər. Söhbət zamanı şəhidimizin keçdiyi şərəfli həyat və döyüş yolundan geniş bəhs edilib. Şəhidimizin ailəsi dövlət səviyyəsində onlara göstərilən diqqət və qayğıya görə cənab Prezident, Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildiriblər. Qeyd edək ki, Emin Əmrahov 2020-ci il oktyabr ayının 27-də Vətən müharibəsi döyüşlərində şəhidlik zirvəsinə yüksəlib. Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən, o ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.



# YAP Daşkəsən rayon təşkilatında Qurtuluş Günü münasibətilə tədbir keçirilib

YAP Daşkəsən rayon təşkilatı 15 iyun Milli Qurtuluş Günü münasibətilə ərazi partiya təşkilatlarında yığıncaqları davam etdirir. Əmirvar ərazi partiya təşkilatında "Müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin şah əsəridir" mövzusunda keçirilən yığıncaqda Sərdar Xıdırov, Rüfət Bədəlov, Vasif Nadir və Şöhrət Məmmədov çıxış edərək bildirdilər ki,1993-cü ilin iyun ayının 4-də ölkənin bir sıra rayonlarında olduğu kimi, Daşkəsən rayonunda da AXC-Müsavat cütlüyünün özbaşınalığın şahidi olmuşuq. 15 iyunda Ümummilli Liderin hakimiyyətə gəlişi bütün özbaşınalıqlara son qoydu. Azərbaycan günü-gündən böyük sürətlə inkişafa doğru getdi. Müstəqil Azərbaycan dövləti özünün dövlət atributlarını yaratdı, xarici siyasətini genişləndirdi. Milli Qurtuluş Gününü bu gün qalib xalq olaraq qeyd edən bütün Azərbaycan Respublikasının vətəndaşları bir yumruq kimi Ali Baş Komandanımız, ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin ətrafında sıx birləşmişlər. Yığıncaqda iştirak edənlər bütün Azərbaycan xalqını Milli Qurtuluş Günü münasibətilə təbrik etdilər.

***Rəfiqə***

TƏRS BAXIŞ

# Əli Əliyevin “aclığı”, yoxsa ”bicliyi”?

*VİP sədrinin "aksiyası" üzərindəki kiri-pası yuya bilməz!*

***Son vaxtlar özlərini ”müxalifət liderləri” elan edərək ölkədəki həssas dövrdə mövcud olan sabitlik reallığına xələl vurmağa cəhd edənlərin var-gəlləri, bu vasitələrlə xaricdən idarə edilən maraqlara nökərçilik etmələri sayəsində mənfəət güdmələri müşahidə olunmaqdadır. Eyni zamanda, belə ünsürlərin yenidən fəallaşmalarını müşahidə etməyimizlə yanaşı bu kimi məsələlərdə xaricdəki söyüş müxalifətinin də zəhərli göbələklər kimi baş qaldırmalarını görməkdəyik. Lakin məsələ yalnız bunda deyil.***




## Kimlərin əlinə hansı ”girəvələr” düşüb?

Məsələ həm də ondan ibarətdir ki, bəlli cinayət əməllərinə görə qanun qarşısına çıxarılaraq cəza alan siyasətbaz kəslər də daxildən öz kirli əməllərini icra etməyə, bununla xarici havadarlarının diqqətlərini cəlb etməyə çalışırlar. Buna misal kimi Vətəndaş və İnkişaf Partiyasının (VİP) sədri Əli Əliyevin guya həbsxanada ”aclıq aksiyası” keçirməsini göstərə bilərik. Əli Əliyevin bu əməlindən belə nəticə hasil etmək olar ki, VİP sədri həmin vasitə ilə haqqında haqlı hökm çıxarmış məhkəməyə qarşı öz təbirincə təzyiqlər edir. Lakin o və onun kimi adamlar unudurlar ki, qanun var, hüquq var və şikayətləri varsa əlbəttə ki, çıxarılmış hökmlərdən şikayət edə, hətta beynəlxalq məhkəmələrə qədər çıxa bilər!

Amma göründüyü kimi, bu hüquqdan istifadə etmək yerinə məqsəd birbaşa ölkənin, dövlətin, xalqın hakimiyyətinin nüfuzuna xələl vurmaqdır. Belə məsələlərdə isə sözdə müxalifət ”liderləri” necə deyərlər, pərgardırlar, özü də hər dəfə əllərinə ”girəvə” düşər-düşməz bax beləcə oyunlarla öz başlarını qatırlar.

## Əli Əliyevin uğursuz ”məntiqi” - adam öldür, həbs olun, ”aclıq aksiyası” keçir və azadlığa çıx (?!)

Fəqət hər şeyə rəğmən, istər VİP sədri olsun, istər onun həbsindən öz şəxsi dividentləri üçün istifadə edərək pul-para qazanmaq istəyən AXCP sədri və ya ”Milli Şura” tör-töküntüləri olsunlar - belə əməllər hər zamankı kimi nəticəsiz qalacaq.

Digər tərəfdən, guya aclıq aksiyası keçirməklə azad ediləcəyini düşünən Əli Əliyevin ”məntiqindən” belə bir nəticə də çıxarmaq və sual etmək olar ki, sən demə cinayət törədənlər, qətl və s. cinayətlərə əl atanlar onlara qarşı çıxarılan hökmlərdən azad olmaq üçün aclıq aksiyaları keçirməlidirlər? Heç bir aksiomaya sığmayan bu kimi oyunbazlıqlar onların dar düşüncələrinə görə baş tuta bilərmiş və s.

## ”Aclıq” adlı uğursuz sirk tamaşaları nümayiş etdirməkdənsə yaxşı olardı ki, hüququn nə demək olduğunu anlasın

Fəqət unudulan daha bir reallıq da var - indi küçələrdə XX əsrin 90-cı illəri deyil, indi bayırda XI əsrin iki onilliyi geridə qalıb və üçüncü onilliyinə qədəm qoyulub. Başqa tərəfdən, Azərbaycan hüquqi dövlətdir və bu sahədə son illər ərzində xeyli islahatlar həyata keçirilib. Əli Əliyev ”aclıq” adlı uğursuz sirk tamaşaları nümayiş etdirməkdənsə yaxşı olardı ki, hüququn nə demək olduğunu anlasın və məlum əməlinə görə aldığı cəzasının da layiqli cəza olduğunu dərk etsin. Çünki o danışdıqca, bu kimi oyunbazlıqlar nümayiş etdirdikcə özünü daha çox ifşa etmiş olur. Məsələ ondadır ki, Əli Əliyevin ”aksiyası” onun üzərindəki kirini-pasını yuya bilmək gücündə deyil...

***Rövşən RƏSULOV***



İLHAM

# Yetimlərin sayı arta bilərmi?

Rusiya-Ukrayna müharibəsinin uzanması və bunun fonunda Rusiyanın itkilərinin artması məndə bir daha o qənaəti yaradır ki, sadə ruslar elə ermənilər qədər yazıq və bədbəxt toplumdur. Çünki tarixən hakimiyyətin yuxarı pilləsində oturmuş istənilən İvan və ya ”alkaş” Petro millətini qırğına verib. Hesablamalara görə, yalnız son 200 ildə ivanların sərxoş baxışları və qərarları səbəbindən 115 milyon rus o dünyalıq olub. Bu gün də rusların vəziyyəti fənadı. ”Bomj”ların sayına görə Rusiya dünyada ön sıralarda qərarlaşır. Yəni, Rusiya əhalisinin 10-12 faizinin evi-eşiyi, işi-gücü yoxdur, sərsəri olaraq zibilxanalarda, meşələrdə, gözdən-könüldən uzaq yerlərdə həyatlarının sonunu gözləyirlər. Rusiyanın suveren, müstəqil Ukrayna dövlətinə hücum edib, minlərlə şəhər və qəsəbəni, kəndi dağıtması, milyonlarla insanı ev-eşiyindən didərgin salması, on minlərlə dinc insanı qətlə yetirməsi Putinə baha başa gələcəyi və ölkəsində ”bomj”ların sayının bir qədər də artacağı şübhəsizdir. Artıq Putin ölkəsinin baş naziri ilə söhbətində vəziyyətlərinin fənadan da fəna olduğunu dilə gətirdi. Hətta deyilənlərə və yazılanlara görə, Putin müharibənin müəyyən şərtlər daxilində dayandırılması üçün Ukrayna hakimiyyətinə müxtəlif kanallar vasitəsi ilə mesajlar göndərsə də, rədd cavabı alıb. Bu isə müharibənin uzanacağından və Rusiyaya daha on minlərlə əsgər cənazələri, yüz minlərlə yaralı göndəriləcəyindən xəbər verir. Görünür, vəziyyətin Rusiyanın parçalanmasına qədər gətirib çıxaracağından qorxuya düşən bir qrup rusiyalı deputat Ukraynadakı hərbi əməliyyatların tezliklə dayandırılması tələbi ilə prezident Vladimir Putinə müraciət ünvanlayıblar. Rusiyanın Kommunist Partiyasının təmsilçiləri olan deputatlar bildiriblər ki, müharibənin uzanması Rusiyada yetimlərin sayının artmasına gətirib çıxaracaq. Bu barədə regional parlamentin iclasında deputat Leonid Vasyukeviç deyib: ”Rusiya ordusu müharibədə əhəmiyyətli hərbi uğur qazana bilməyəcək. Bununla belə biz ciddi itkilər veririk. Biz başa düşürük ki, ölkəmiz hərbi əməliyyatı dayandırmasa, Rusiyada yetim qalan uşaqların sayı daha da çox olacaq”.

Bir neçə yüz ildir ki, imperiya siyasəti ilə az qala dünyada hegemonluq edən Rusiya artıq çökməkdədir. Daha doğrusu, Vladimir Vladimiroviç Putin Rusiyanı dağılmaq astanasına çıxarıb. Bu gün dünyada elə bir insan olmaz ki, Putini lənətləməsin, təhqir və söyüş obyektinə çevirməsin. Səbəb yalnız Ukraynanı dağıtması və milyonlarla insanın həyatını məhv etməsi deyil. Həm də Putinin, onun qurduğu hakim rejimin insanlığa düşmən kəsilməsi, Suriyada, Liviyada, Əfqanıstanda, Gürcüstanda, Moldavada və digər bu kimi onlarla ölkəyə müdaxilə edərək, insanları kütləvi şəkildə qətlə yetirməsi, şəhərləri viran qoymasıdır. Təbii ki, belə siyasət bir gün ölkənin başında çatlamalı idi, göründüyü kimi də, artıq məqam yetişib, Rusiya başqa ölkələrə törətdiyi fəlakətləri yaşamaqdadır.

”Mimino” filminin baş rol ifaçısı, tanınmış gürcü müğənni Vaxtanq Kikabidze Rusiya Prezidenti Vladimir Putini yaramaz adam adlandırıb. Bidirib ki, Putin Ukrayna müharibəsi ilə özü və ətrafı ilə yanaşı, Rusiyanı da məhv edəcək: ”Bütün murdarlıqlar cəzasını almalıdır. Putin Ukrayna müharibəsindən sonra geri qayıda bilməyəcək. Putin soyadı artıq söyüş ifadə edir. Gələcəkdə dərsliklərdə bununla bağlı məlumat yer alacaq. Deyərdim ki, Putin çox yaramaz adamdır. Gürcücə desək, daha kobud ifadə alınar. Sanki elə davranır, bütün dünya ona nifrət etsin. Hitler, Stalin kimi tarixə düşmək istəyir. Putin yox edilməlidir. Kremldə başqa şəxslər düşünməlidir ki, müharibəni necə dayandırmaq olar. Bu murdarlığa son qoyulmalıdır”.

Siyasi təhlilçilərin fikirlərinə əsaslansaq, Rusiya hələ ötən əsrin əvvəllərində dağılmalı idi. Sadəcə, parçalanma prosesi bir qədər yubanıb. Məşhur Amerika siyasətçisi və politoloqu Zbiqnev Bjezinski 1982-ci ildə hazırladığı ”NATO-nun Şərqə doğru genişləndirilməsi” planında sovet monstrının 22 dövlətə parçalanması məsələsi qoyulurdu. Proqnozlar özünü doğrultdu və SSRİ milli və iqtisadi faktorlar əsasında müstəqil dövlətlərə parçalandı. Məşhur politoloq 1986-cı ildə qələmə aldığı ”Oyunun planı” kitabında isə qeyd edir ki, Rusiya - hər cəhətdən iflasa uğramış ölkədir və yaxın illərdə xaos, dilənçilik və fasiləsiz etnik münaqişələr içində itib-batacaqdır: ”Rusiya öz həyatında heç bir geosiyasi seçimə malik olmayan ”qara deşik”dir, çünki söhbət yalnız mahiyyətcə onun fiziki cəhətdən mövcud olub-olmamasından gedir. Rusiyanı mütləq hissələrə bölmək lazımdır, bu zaman o, Rusiyanın Avropa hissəsini, Sibir respublikasını və Uzaq Şərq respublikasını birləşdirən konfederasiyadan ibarət olacaqdır ki, onlardan hər biri üçün ayrılıqda Avropa ilə, yeni Mərkəzi Asiya dövlətləri ilə və Şərqlə sıx iqtisadi əlaqələr qurmaq daha asan olacaqdır”.

Bir sözlə, qəddarlığı və vəhşiliyi ilə seçilən Rusiya süquta doğru sürətlə irəliləyir. Yəqin ki, çox yaxın vaxtlarda bu caynaqlı şimal ayısı demokratik dünyanın birgə mübarizəsi ilə məhv olacaq. Bununla da, bir sıra sivil dövlətlər və tərəqqipərvər xalqlar rahat nəfəs alacaqlar.

# Erməni zəvvarlar Xudavəng məbədini ziyarət edə biləcəklər, amma...

***Erməni zəvvarlar 2020-ci ildə 44 günlük müharibədən sonra Azərbaycanın nəzarətində olan əraziyə düşmüş Xudavəng məbədini yenidən ziyarət etmək imkanı əldə ediblər. SİA xəbər verir ki, bu barədə ”Armenia Today”a açıqlamasında məbədin keçmiş keşişi Ter Hovhannes Hovhannisyan bildirib.***



O qeyd edib ki, müqəddəs məbədə erməni zəvvarların maneəsiz getmələri üçün erməni tərəfi Rusiya sülhməramlıları ilə intensiv işləyib. Danışıqlar nəticə verib və razılaşmalar əldə edilib. Lakin ciddi məhdudiyyətlərlə: ”Əldə edilən razılığa əsasən, ayda bir dəfə avtobusla 20-22-dən çox zəvvar Xudavəngə səfər edə bilməyəcək və ciddi nəzarət altında monastır kompleksinin ərazisinə girişə yalnız hər birinin şəxsi yoxlanışından sonra icazə veriləcək”, - erməni keşiş bildirib.

# Tər düşməni olan təhlükə- Xərçəngə dəvətnamə

**Qoltuqaltına yığılan tər bədəndən xaric olmadıqda tərkibindəki toksinlər xərçəng yaradır**

Kainatdakı hər şeyin - xoşagələn, ya da xoşagəlməz bir qoxusu var. Bu səbəbdən qoxusuz bir həyatı və insanı düşünmək mümkün deyil. Amma bir çox insanda xəstəlik və ya başqa bir səbəbdən pis bədən qoxusu yaranır. Bu qoxu daha çox tərləyəndə ortaya çıxır. Bu cür insanlar pis qoxudan yaxa qurtarmaq üçün tər əleyhinə kimyəvi vasitələrdən və ətirlərdən istifadə edir. Olduqca isti günlər keçirdiyimiz yay aylarında isə bir çoxumuz antiperspirantsız qala bilmirik.

Ümumdünya Səhiyyə Təşkilatı antiperspirantları dərman olaraq xarakterizə edir. Çünki bu maddələr bədənin normal inkişaf və irəliləmə tempinə təsir edərək orqanizmi dəyişikliyə uğradır. Tərləmək olduqca normal, təbii bir prosesdir. Bədən temperaturunun qorunmasını və zərərli maddələrin atılmasını təmin edən tərləmə həm də içdiyimiz dərmanlardakı toksinlərin atılmasına imkan yaradır. Maye və qatı antperspirantlar tər məsamələrini bir növ suvayaraq tərin axımına mane olursa dezodorantlar bu zaman ortaya çıxan kəskin qoxunu aradan qaldırır. Maraqlıdır, bu tər düşmənlərinin tərkibi nədir?

Antiperspirantların çoxunda olan aluminium duzu tər kanallarını tıxayaraq tərin dəri xaricinə çıxmasını 20-40 % nisbətində azaldır. Əslində, bu məhsullar tərləməyi ortadan qaldırmır, sadəcə daxildən çıxmasını önləyir ki, bu da insan orqanizminə olduqca zərərlidir.

Mütəxəssislər bunu insanın sidiyə getməsi kimi bir təbii ehtiyacla müqayisə edirlər. Tibb biliciləri hesab edir ki, insanın normal sidiyə getməmək üçün onu daxilində uzun müddət saxlaması ilə tərin antiperspirantlar tərəfindən dəri altına göndərilməsi eynidir. Sidik kisəsinin dolaraq insana verəcəyi zərər ilə tər kanallarının ağzının tər əleyhinə vasitələrlə bağlanması nəticəsində bədənə dəyən zərər də eynidir.

Tər əleyhinə istifadə edilən vasitələr, əslində, bakteriyaların çox sevdiyi pis iyin dəri altına yığılmasına kömək edir. Çünki tər kanalları istilənən bədənin sərinləməsi üçün xaricə tər ifraz etməlidir. Əgər bu tər orqanizmdən çıxa bilmirsə, dəri altında qalaraq pis qoxu yaradır.

Antiperspirantların son zamanlar dəri xərçənginə təsiri ilə bağlı olduqca çox məlumatlar yayılır. Dünyanın bir çox nüfuzlu tibb ocaqlarında bu barədə araşdırmalar hazırlanır. İngiltərənin Reading Universitetinin alimləri daha dərindən araşdırma apararaq süd vəzisində şiş olan 20 qadını müayinə ediblər. Araşdırmanın başladılmasına səbəb isə ölkədə sağlamlıq mərkəzlərinin antiperspirantların tərkibində ”paraben” adlı kansorogen maddənin olması barədə iddialar olub. Alimlər çox maraqlı bir nəticə əldə edib. 20 qadından 18-də daha çox antiperspirantların hazırlanmasında istifadə edilən ”paraben” adlı təhlükəli maddə təsbit edib.



Məlumat üçün bildirək ki, hazırda bütün inkişaf etmiş ölkələrdə tərkibində ”paraben” olan kosmetik vasitələr, əsasən də ətirlərin və antiperspirantların satışına qadağa qoyulub. Bu maddə insan DNK-sını pozur, xərçəngə səbəb olur. Avropa ölkələrində istehlakçıların saha məlumatlı olması səbəbindən tərkibində ”paraben” olan antiperspernatlar satılmır.

İngiltərənin məşhur tibb jurnalı ”Lancet” də belə bir araşdırma aparıb. Əldə edilən nəticələrə görə qadınlarda süd vəzisi xərçənginin yaranmasına elə tər əleyhinə vasitələr səbəb olur. Məntiqlə qoltuqaltının döşə yaxın məsafədə olması bu nəticənin doğru olduğunu təsdiqləyir.

Jurnalın araşdırmasına görə, antiperspirant dezodorantlar və digər tər əleyhinə olan vasitələr qoltuq altlarındakı tər kanallarını tıxayaraq insan orqanizmində xərçəngə səbəb olan zərərli toksinlərin bədəndən atılmasının qarşısını alır və beləcə tərdəki toksinlər süd vəzilərinə yaxın məsafədə toplanır və bu da getdikcə döş xərçənginin yaranmasına səbəb olur.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Uşaq və gənclərin fiziki və mənəvi inkişafı” istiqaməti çərçivəsində hazırlanıb.*

Həkimlərin fikrincə, kişilər bu barədə daha şanslıdır, çünki onlar qadınlar qədər bu kosmetik məhsula həvəsli deyillər. Qadınlar qoltuqaltını təraş etdikdən sonar antiperspirant istifadə etdikdə isə təhlükə iki dəfə çoxalır. Çünki təraş dərinin qoruyucu təbəqəsini zədələdiyi üçün kimyəvi maddələr bu məsamələrdən asanlıqla orqanizmə daxil olur.

Xüsusən də, uşaq və yeniyetmələrə bu vasitələrdən istifadə etmək qətiyyən yolverilməzdir. Onların orqanizmi tam formalaşmadığından belə ultrakimyəvi vasitələr inkişaflarına ciddi problemlər yaradır.

Bu gün istifadə olunan antiperspirantların bəzilərinin üzərində tərkibi haqqında heç bir məlumat yoxdur. Amma antiperspirantların demək olar ki, hamısının tərkibinə aliminium ( Al ) elementi vurulduğu məlumdur. Bədəndə istənməyən tər qoxularının qarşısını təbii vasitələrlə də almaq mümkündür. Üstəlik, bu yolla tərin orqanizmdən xarıç olmasının qarşısı da alınmır. Hətta təbii vasitələrlə hazırlanmış firma məhsullarının da tərkibində aliminium var. Yazımızda qeyd etdiyimiz xəstəliklərdən uzaq olmaq üçün satılan antipespirantlardan yox, təbii antipesperantlardan istifadə etmək lazımdır.

Bunun üçün bizə 2 x.q. düyü nişastası, 1x.q. soda , 3-4 x.q. kakao yağı, 1-2 damcı lavanda yağı, 1 ədəd kapsula şəklində E vitamini lazımdır. Kakao yağını isti su vannasında əridib digər elementləri əlavə edərək qarışdırmaq lazımdır. Lavanda yağının əvəzinə nanə yağı və ya darçın da istifadə etmək olar. Bütün maddələr həll olunduqdan sonra alınan qarışıq buz dolabına qoyulur, bərkidilir və sizin ev üsulu təbii antipesperantınız hazırdır.

Ev üsulu antiperspirantı tozpudra kimi də hazırlamaq olar. Bunun üçün 1x.q. soda, 2 x.q. uşaq pudrası, 1 ç.q. üyüdülmüş lavanda çiçəyini qarışdırıb, yumşaq kist ilə qoltuqaltına tətbiq etmək etmək olar. Yaxud antiperspirant əvəzi iydə yağından istifadə oluna bilər. Onu da qeyd edək ki, təklif etdiyimiz ev üsulu antiperspirantlar paltarda və qoltuqaltında heç bir iz qoymur.

***Lalə Mehralı***



SƏS

10 iyun
2022-ci il

# NBA-da ilk milyarder basketbolçu




**Məşhur amerikalı basketbolçu, ikiqat olimpiya çempionu LeBron Ceymsin sərvəti 1 milyard dollar olub. APA xəbər verir ki, "Forbes" jurnalının ekspertləri bildirir ki, 37 yaşlı basketbolçu bir ilə 121.2 milyon dollar qazanaraq bu sərvətə çatıb. Los Angeles Lakers komandasının üzvü bu qədər sərvətə malik ilk Milli Basketbol Assosiasiyası (NBA) oyunçusudur.**

Qeyd edək ki, Milli Basketbol Assosiasiyasının yalnız bir oyunçusu - əfsanəvi Maykl Cordan 1 milyard dollar sərvətə çatsa da o, təqaüdə çıxdıqdan 11 il sonra yəni 2014-cü ildə bu qədər pul qazana bilib.

Beləliklə, Ceyms NBA-da milyarderlər siyahısına düşən ilk aktiv oyunçu olub. LeBron ABŞ komandası ilə dördqat NBA çempionu və ikiqat Olimpiya çempionudur.



# Bağçaya getməyən uşaqlar məktəbə gedə bilər?

"Bağçaya getməyən uşaqlar məktəbə gedə bilər. Burada hər hansı bir şərt yoxdur". Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə mütəxəssis Elçin Əfəndi deyib.

Onun sözlərinə görə, çünki burada müvafiq olaraq hər hansı bir imtahan və yaxud da müsabiqə mərhələsi yoxdur: "Bu, yalnız rus bölməsinə aiddir". Elçin Əfəndi sözlərinə belə davam edib: "Azərbaycan bölməsində isə belə bir problem yoxdur".

***Ayşən Vəli***

# "Vaxtı düzgün bölməyi bacarmalıdırlar"

**"Əsəb pozğunluğunun ümumi diaqnostikası nevropatoloq tərəfindən müəyyən olunur. Əsəb pozğunluğu diaqnozunu hər adama qoya bilmərik". Bu sözləri SİA-ya açıqlamasında**



**psixoloq Vüsalə Əmiraslanova bildirib. Onun sözlərinə görə, ümumiyyətlə psixoloq hər hansısa bir diaqnozu qoya bilən şəxs deyil: "Sadəcə onun gedişatına nəzarət edən və nevropatoloqun təyinatı ilə terapiyalarını aparan şəxsdir.**

Əsəb pozğunluğu olan insanlar ümumiyyətlə çalışıb ətrafında olanları qıcıqlandıran, əsəbləşdirən, tələskinliyə sövq edən insanları uzaqlaşdırmalıdırlar. Ümumiyyətlə çox gərginlik tələb edən işlərdən uzaq durmalıdırlar. Həyat şəraitlərini öz psixi durumlarına uyğun qurmalıdırlar. Böyük tədbirlər, səs-küylü yerlər onlara xoş gəlmir. Bacardıqları qədər yuxu rejimlərinə fikir verməlidirlər. Həmçinin hansı vaxtlarda dincəlməli, hansı vaxtlarda işləməlidirlərsə, bunu planlaşdırmalıdırlar. Əgər zehni güc tələb edən işdədirlərsə, bu zaman istirahətlərinə mütləq şəkildə vaxt ayırmalı, vaxtı düzgün bölməyi bacarmalıdırlar. Əsasən bu xəstəliyin mənbəyi tapılmalıdır ki, bu problem haradan yaranır. Genetikdirmi, düşdüyü mühit səbəb olub və ya hər hansı bir travmadan sonra yaranıb. Bunları nevropatoloq müəyyənləşdirir və ona uyğun hərəkət olunur".

***Səbinə Hüseynli***



# Hipnoz nədir?

"Hipnoz təlqinə meyilli insanların, psixohəssas insanların hipnozçunun sözləri ilə şüuraltına verilən süni yuxu prosesidir". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fərqanə Mehmanqızı bildirib. Onun sözlərinə görə, yəni hipnozçunun sözlə təlqini nəticəsində insanlarda yuxuyabənzər vəziyyətin xüsusi növüdür: "Hipnozun çox müxtəlif növləri var. Qədim Yunanıstanda, qədim Romada Sibirdə hətta Koreyada da hipnozun özünəməxsus növlərindən istifadə olunur. Hipnozçular sertifikatlarla təltif edilib.

Hipnozdan ilk dövrlər əməliyyat zamanı ağrıkəsici effekti vermək üçün istifadə olunub. Bu gün müasir hipnozdan kriminal aləmdə, reabilitasiyalarda, cinayətlərin açılmasında istifadə olunur. Hipnoz fobiası olanlara, ürəkçatışmamazlığı olanlara, hər şeydən qorxan insanlara tətbiq edilə bilməz. Müəyyən vərdişlərin belə ki, narkotik, alkaqol vərdişlərinin azaldılması üçün də istifadə edilir. Hipnoz bəzi ruhi xəstəliklərdə, şəxsiyyət pozuntusunda, maddələr asılılığında da istifadə olunur. Lakin Azərbaycanda yaxşı hipnozçuların olduğunu düşünmürəm. Onlar dələduzluqla insanları yalnış yönləndirirlər".

***Abutel İlhamqızı***

# Avtomobildən 8900 manat pul oğurlanıb

***Bakıda avtomobildən 8900 manat pul oğurlanıb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, Səbail Rayon Polis İdarəsinin 41-ci Polis Bölməsinə Badamdar qəsəbəsi ərazisində "Opel" markalı bir avtomobildən 8900 manat pul, sənəd, bankomat kartı, gödəkcə və ərzaq məhsullarının oğurlanması barədə müraciət daxil olub.***

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Masallı rayon sakinləri, əvvəllər də analoji əməlә görə məhkum olunmuş H.Rzayev və E.Səfərov müəyyən edilərək saxlanılıblar. Araşdırma aparılır.



***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**